RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 155 (8748) CÜMƏ AXŞAMI, 29 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 10.000.000,0 (on milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2021-ci il*

# Möhtəşəm ittifaq

## Azərbaycan, Türkiyə və Pakistanın yaratdığı platforma bu birliyi Avrasiyanın yeni iqtisadi, siyasi və hərbi güc mərkəzinə çevirməyə imkan verəcək

Müstəqilliyimizin 30-cu ilini qeyd etməyə hazırlaşırıq, özü də bu dəfə qürurla, iftixarla və daha qüdrətli dövlət kimi. Son iyirmi illik tariximizə nəzər saldıqda ölkəmizin böyük nailiyyətlərə imza atmasının şahidi oluruq. Bu nailiyyətlər Azərbaycanın beynəlxaq aləmdə imicinin artmasının və iqtisadi qüdrətinin gündən-günə yüksəlməsinin təkzibolunmaz nümunəsidir. 44 günlük Vətən müharibəsində əldə edilən şanlı qələbə isə Azərbaycanın həm də hərbi qüdrətini dünyaya nümayiş etdirmiş oldu.

Prezident İlham Əliyevin son 18 illik siyasi-diplomatik fəaliyyəti, tam müstəqil siyasəti Azərbaycanı dünya ictimaiyyətinin diqqət mərkəzində olan və beynəlxalq aləmdə öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevirib. Dünyanın aparıcı söz sahibinə malik olan ölkələri və onların nüfuzlu tədqiqat institutları, beynəlxalq reytinq təşkilatları da bu faktları dəfələrlə etiraf ediblər.

### Tərəfdaşlığın inkişafı üçün yeni impuls

Bu günlər inkişafımız və gələcək hədəflərə çatmağımız baxımından yenə də maraqlı və önəmli hadisələrlə yadda qaldı. Son iki həftə ərzində baş verən hadisələr bir daha təsdiqlədi ki, Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra regionda yaratdığı reallıqlar yeni əməkdaşlıq formatları üçün zəmin yaradıb.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə yeni əməkdaşlıq formatı ətrafında aparılan danışıqların, həmçinin dövlət başçısının Rusiyaya səfəri çərçivəsində Vladimir Putinlə aparılan danışıqlarda İlham Əliyevin bir daha ölkəmizin milli maraq və mənafeləri naminə dəmir iradəsini ortaya qoyması, Azərbaycanın dövlət təhlükəsizliyi ilə bağlı məsələlərdə bir addım olsun belə geri çəkilmədiyini və bundan sonra da çəkilməyəcəyini açıq şəkildə nümayiş etdirdi. Eyni zamanda ölkəmizin bütün beynəlxalq qurumlarla açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığa üstünlük verməsi və hər zaman da bu yöndə əməli, səmimi niyyətlərini ortaya qoyması öz təsdiqini tapdı.

İyulun 27-də Bakıda daha bir tarixi hadisə yaşandı. Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin üçtərəfli əməkdaşlıq platformasının yaradılması ilə bağlı Bakı Bəyannaməsi imzalandı.

Bu təklif ötən ay İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının İkinci Ümumi Konfransında Azərbaycan tərəfindən irəli sürülmüşdü və iyul ayında gerçəkliyə çevrildi.

Öncə Türkiyə və Pakistanın parlament rəhbərləri Prezident İlham Əliyevlə görüşdülər və bildirildi ki, dost və qardaş ölkələr arasında münasibətlər bütün sahələrdə uğurla inkişaf etməkdədir. Görüşdə Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulandı, bunun qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət etdiyi qeyd olundu, hər üç ölkənin bütün məsələlərdə bir-birini dəstəkləyən qardaş dövlətlər olduğu bildirildi.

### Azərbaycan-Türkiyə-Pakistan dostluğu hansısa ölkələrə qarşı yönəlməyib

Həmin gün Bakıda üç ölkənin parlament rəhbərlərinin görüşü keçirildi və tarixi hadisə yaşandı. Qardaşlıq əlaqələrinə, qarşılıqlı hörmət və etimada söykənən Azərbaycan, Pakistan və Türkiyə münasibətlərini daha da möhkəmləndirən Bəyannamə imzalandı.

İyulun 27-də təməli qoyulan üçtərəfli parlamentlərarası əməkdaşlıq formatı, əlbəttə ki, ölkələrimiz arasında tarixi qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsinə, ortaq maraqlara yüksək səviyyədə xidmət etməyə mühüm töhfə verəcək.

Görüşdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova qeyd etdi ki, ölkələrimiz artıq bir neçə sahədə üçtərəfli formatda əməkdaşlıq edir. Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirləri, habelə müdafiə nazirlikləri arasında sıx əməkdaşlıq mövcuddur. Yeni mərhələdə də hər üç dövlət müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsində, bir-birinin milli maraqlarının beynəlxalq müstəvidə qorunmasında güclü siyasi iradə nümayiş etdirəcək. Bu format çərçivəsində görüşlər keçiriləcək və bu formatın getdikcə daha səmərəli platformaya çevrilməsi ölkələrimiz arasında əlaqələri möhkəmləndirəcək.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentop dedi ki, Azərbaycan-Türkiyə-Pakistan dostluğu hansısa ölkələrə qarşı yönəlməyib. Bu dostluq mexanizmi böyük gələcək vəd edir. Bunun həmçinin böyük iqtisadi töhfələri olacaq.

Pakistan parlamentinin Sədri Əsəd Qeysər isə bildirdi ki, parlament sədrlərinin üçtərəfli görüş formatı yaxşı fürsət yaradır. Bu fürsətdən səmərəli istifadə etmək üçün bir sıra təkliflərini səsləndirən parlament Sədri ticarət, turizm, insan resurslarından istifadə sahələrində əməkdaşlığın vacibliyindən danışdı. Həmçinin Pakistanda Azərbaycan və Türkiyə mədəniyyət mərkəzlərinin yaradılmasının, birgə sənədli filmlərin çəkilməsinin, tələbə mübadiləsinin həyata keçirilməsinin çox faydalı olacağını dedi.

Sahibə Qafarova 3 qardaş ölkənin parlament sədrlərinin yeni formatda ilk görüşünün yekununda qəbul olunan Bakı Bəyannaməsində əksini tapan məsələlərin münasibətlərin inkişafının parlament ölçüsünü möhkəmləndirməyə kömək göstərəcəyini vurğuladı.

Ümumiyyətlə, Azərbaycan, Pakistan və Türkiyə bir-biri ilə sıx bağlı olan dost, qardaş və müttəfiq ölkələrdir. Hər üç ölkənin parlamentləri arasında çox sıx dostluq münasibətləri mövcuddur. Amma ilk dəfədir ki, üç parlament rəhbəri birlikdə bəyannamə imzalayırlar və bir sıra aktual məsələlərlə bağlı ortaq mövqelərini meydana qoyublar. Bu, üç ölkənin müttəfiqlik münasibətlərinin daha yüksək səviyyəyə çatdığının və həm dövlət quruculuğunda, həm də beynəlxalq birlikdə fəaliyyətdə birgə yanaşmalar axtardıqlarının bariz təcəssümüdür.

*Ardı 4-cü səh.*

## TBMM-in sədri: “Azərbaycan-Türkiyə-Pakistan dostluğu böyük gələcək vəd edir”

“Azərbaycan-Türkiyə-Pakistan dostluğu hansısa ölkələrə qarşı yönəlməyib. Bu dostluq mexanizmi böyük gələcək vəd edir. Bunun, həmçinin böyük iqtisadi töhfələri olacaq”.



AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop iyulun 28-də keçirdiyi mətbuat konfransında deyib. ”Türkiyənin Azərbaycanın yanında olması təkcə Vətən müharibəsi ilə bağlı deyil. Biz hər zaman qardaş ölkəmizə dəstək vermişik və buna davam edəcəyik”, - deyə TBMM-in sədri qeyd edib.

## Gəncədə “Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar” mövzusunda konfrans keçirilib

İyulun 28-də Gəncədə Yeni Azərbaycan Partiyası (YAP) ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında ikitərəfli Əməkdaşlıq Protokoluna uyğun olaraq “Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatları, dövlət qurumlarının əməkdaşları və elm xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzüblər.

Gəncə Heydər Əliyev Mərkəzi ilə tanış olan konfrans iştirakçılarına bildirilib ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib.

Numan Kurtulmuş Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən qəhrəman vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında imzalanmış ikitərəfli Əməkdaşlıq Protokolundan sonra ilk belə konfransın Gəncə şəhərində keçirildiyini qeyd edib. 44 günlük Vətən müharibəsinin Türkiyə-Azərbaycan münasibətlərinin zirvəsi olduğunu bildirən T.Budaqov qarşılıqlı əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirib.

*Ardı 3-cü səh.*

## Yarımillik xarici ticarət saldosu müsbətdir

### Azərbaycan bu dövrdə 171 ölkə ilə idxal-ixrac əməliyyatları aparıb

Ticarət əlaqələri beynəlxalq bazardakı imkanları genişləndirməyə, habelə yerli bazarda mövcud olmayan, yaxud az olan malların əlçatımlılığına şərait yaradır. Bu halda rəqabət artır, yerli brendlərin daha yüksək səviyyədə formalaşması və idxal olunan maldan daha keyfiyyətli məhsulların bazara çıxarılması mümkün olur. Əlbəttə ki, rəqabətin çox olduğu təqdirdə müəssisələr qiymətlərlə bağlı tədbirləri də ön plana çəkir, nəticədə istehlakçıya ucuz və keyfiyyətli məhsul təqdim edilir.

Xarici ticarət ölkələrin inkişaf dinamikasını sürətləndirib onları qabaqcıl pillələrdə qərarlaşdıran əsas amillərdən biridir. Azərbaycan da dünya dövlətləri ilə geniş ticarət əlaqələri saxlayır. Əslində, ölkəmizin xarici ticarət əlaqələrinin tarixi uzaq keçmişlərə təsadüf edir. Böyük İpək yolu vasitəsilə Azərbaycan həmişə Şərqlə Qərb arasında ticarət mərkəzlərindən biri kimi xarakterizə olunub. Bu gün də həmin tendensiyanı davam etdirərək dünyanın onlarca ölkəsindəki tərəfdaşları ilə ticarət əlaqələri saxlayır. Cari ilin birinci yarısında onların sayı 171 olub.

*Ardı 5-ci səh.*




## Boksçumuz Alfonso Dominges Tokio Olimpiadasının dördddəbir final mərhələsinə yüksəlib

Azərbaycan boksçusu Alfonso Dominges “Tokio-2020” Yay Olimpiya Oyunlarına qələbə ilə başlayıb. 81 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz ilk görüşündə özbəkistanlı Dilşodbek Ruzmetov ilə qarşılaşıb.



Rəqibinə 4:1 hesabı ilə qalib gələn A.Dominges dörddəbir final mərhələsinə yüksəlib. Onun növbəti rəqibi türkiyəli Bayram Malkan olacaq. Döyüş iyulun 30-da baş tutacaq.

Qeyd edək ki, Azərbaycan boksçularından daha əvvəl Cavid Çələbiyev (63 kq) və Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) səkkizdəbir final mərhələsinə vəsiqə qazanıblar. Tayfur Əliyev (57 kq) və Lorenzo Sotomayor (69 kq) isə mübarizəni dayandırıblar.

*Bax: səh. 7*

## Peyvənd olunmaqla dünyanı bu bəladan xilas edə bilərik

### Bu, həm də pandemiya dinamikasının diktə etdiyi reallıqdır

Artıq bir ildən çoxdur ki, dünyanın üzləşdiyi qlobal pandemiya davam etməkdədir. Başladığı vaxtdan da dünya bu gözlənilməz, qəfil bəla ilə mübarizə aparır.

2020-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatı yeni koronavirusun yayılmasını pandemiya elan edəndən bəri dünyada bu virusa yoluxanların sayı 200 milyona yaxınlaşmaqdadır.

### COVID-19-dan ölənlərin ümumi sayı 4 milyon 137 min nəfərə çatıb

Çin, İtaliya, ABŞ, İngiltərə, Braziliya kimi iqtisadiyyatı və səhiyyəsi güclü olan ölkələr bu virusun mərkəzinə çevrilib. Dünyada COVID-19-dan ölənlərin sayı son məlumata görə, 4 milyon 137 min nəfərə, sağalanların sayı isə 158 milyon 740 min nəfərə çatıb.

ABŞ yeni növ koronavirus infeksiyasına yoluxma hallarının çoxluğuna görə lider ölkədir. Bu ölkədə koronavirusa yoluxanların sayı 34 milyon 264 min nəfəri keçib, 613 min 494 nəfər infeksiyadan dünyasını dəyişib. 28 milyon 254 mindən çox insan isə sağalıb.

*Ardı 7-ci səh.*

## “Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2444 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2444 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 981; 2009, № 1, maddə 17; 2012, № 2, maddə 125; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi, eyni zamanda, Kuba Respublikasında akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 1476 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 1476 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1184; 2016, № 8, maddə 1384; 2017, №11, maddə 2123; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Vyetnam Sosialist Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 avqust tarixli 1346 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 avqust tarixli 1346 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 924; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Respublikasının Koreya Respublikasında fövqəladə və səlahiyyətli səfiri
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Asiya İdarəsinin rəisi.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası üzrə tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2015 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2015 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 247; 2008, № 11, maddə 1030; 2009, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 110; 2014, № 2, maddə 112, № 4, maddə 391, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri
Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri
Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İnvestisiya layihələrinin və infrastrukturun maliyyəsi şöbəsinin müdiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Yunanıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 422; 2012, № 2, maddə 114; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri
Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Qırğız Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 17 iyun tarixli 2125 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 17 iyun tarixli 2125 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1128) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının fövqəladə hallar naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Qətər Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 2413 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 2413 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 914; 2009, № 7, maddə 589; 2011, № 6, maddə 520; 2012, № 2, maddə 104; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının xarici işlər naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Mərakeş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 718 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 718 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 99, № 9, maddə 773; 2012, № 2, maddə 130; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının xarici işlər naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Azərbaycan Respublikasının Küveyt Dövlətində fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Küveyt Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 noyabr tarixli 580 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 noyabr tarixli 580 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 905; 2012, № 2, maddə 111; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişikliklər barədə Suriya Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## İ.N.Məmmədovun Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlham Nəriman oğlu Məmmədov Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2021-ci il*

## H.S.Zeynalovun Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Həsən Sultan oğlu Zeynalov Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2021-ci il*

## Gəncədə "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzusunda konfrans keçirilib













*Əvvəli 1-ci səh.*

İki ölkəni birləşdirən tarixi köklərin, mədəniyyətin, dinin və milli-mənəvi dəyərlərin olması ilə yanaşı, dövlət başçılarının qarşılıqlı münasibətlərinin də bu əlaqələrin yüksək səviyyəyə çatmasında böyük rol oynadığını vurğulayıb. Konfransın Gəncə şəhərində keçirilməsinin təsadüfi olmadığını qeyd edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri deyib ki, tarixən Gəncə Azərbaycanın milli istiqlal mübarizəsində, azadlıq və azərbaycançılıq ideyalarının həyata keçməsində müstəsna xidmətləri olmuş şəhərlərimizdəndir.

"Türkiyə - Azərbaycan dostluğu bizim milli köklərimizə əsaslanır və çoxəsrlik tarixə malikdir. Bütün zamanlarda bizim ürəyimiz türk qardaşlarımızla döyünüb, eynilə onlarda olduğu kimi. Türkiyə Azərbaycanın hər bir problemini öz problemi, hər bir uğurunu öz uğuru kimi qəbul edib. Biz bunu bu gün əyani şəkildə bir daha görürük. Xüsusilə 44 günlük



Vətən müharibəsində Azərbaycanı istəməyən müxtəlif qurumların, təşkilatların təzyiqlərinə baxmayaraq, qardaş Türkiyə bizim yanımızda oldu", - deyə Tahir Budaqov çıxışında qeyd edib.

AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş konfransın Vətən müharibəsindəki Zəfərdən sonra keçirilməsinin xüsusi əhəmiyyəti olduğunu vurğulayıb. Bildirib ki, Qarabağ zəfəri işğal altındakı ərazilərin azad olunması ilə birgə bütün dünyaya haqlı tərəfin hər zaman qələbə çalacağını göstərdi. Türkiyə Respublikası başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, müharibənin ilk günündən Azərbaycanın yanında oldu. Bu gün məqsəd bu Qələbədən sonrakı nailiyyətləri daha yüksək səviyyəyə qaldırmaqdır.

"Qarabağ Zəfərinin əldə olunması ilə qazanılan nailiyyətlərdən biri də dünyanın ikili standartlar siyasətinin bir daha ortaya çıxarılmasıdır. Otuz ilə yaxın davam edən erməni işğalına başda Minsk qrupu olmaqla dünyadakı heç bir güc səsini çıxarmadı. Eyni formada BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə rəğmən işğalın uzun illər davam etdiyini və bu qurumun heç bir tədbir görmədiyinin şahidi olduq. Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özü ədalətsizliyə son qoydu, dünyada daha bir haqsızlıq aradan qaldırıldı", - deyə N.Kurtulmuş bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, AK Parti sədrinin xarici əlaqələr üzrə müavini, Bursadan deputat Efkan Ala, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru professor İbrahim Cəfərov, SETA Araşdırmalar Mərkəzinin xarici əlaqələr üzrə mütəxəssisi professor Ferhat Pirinççi konfransda çıxış edərək Şuşa Bəyannaməsinin əhəmiyyətindən və gələcəkdə qarşılıqlı əlaqələrin inkişafındakı rolundan danışıblar.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub, birgə şəkil çəkdirilib.

## YAP-ın və AK Partinin Gəncədə birgə mətbuat konfransı olub

İyulun 28-də Gəncədə Yeni Azərbaycan Partiyası (YAP) və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında ikitərəfli Əməkdaşlıq Protokoluna uyğun olaraq, "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzusunda konfrans başa çatdıqdan sonra hər iki partiya rəsmisinin birgə səfərin yekunlarına dair mətbuat konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səfərin yekunları barədə məlumat verərək deyib: "Səfər Bakıda Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevlə görüşlə başlayıb. Görüş zamanı bölgədə yaranmış yeni vəziyyətə uyğun olaraq qarşılıqlı əməkdaşlığın perspektivləri, gözlənilən nəticələr və partiya rəhbərliyi tərəfindən bu istiqamətdə atılacaq addımlar barədə məlumat verilib. Sonra nümayəndə heyəti Milli Məclisdə olub, YAP rəhbərliyi ilə görüşlər keçirib və bundan sonra atılacaq addımlar barədə səmərəli fikir mübadiləsi aparılıb. Sonra səfər Gəncə şəhərində iki partiyanın birgə keçirilən "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzusunda konfransı ilə yekunlaşıb".

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuş səfər ərzində göstərilən qonaqpərvərliyə və diqqətə görə təşəkkür edib. O, Türkiyə-Azərbaycan münasibətlərinin gələcək inkişafı və bu istiqamətdə partiyalar tərəfindən göstəriləcək dəstək haqqında danışarkən bildirib ki, bundan sonra da qarşılıqlı əlaqələrin siyasi partiyalar tərəfindən rəsmi qurumlar arasında daha da möhkəmləndirilməsi üçün əllərindən gələn köməyi əsirgəməyəcəklər. "Başda cənab Prezident İlham Əliyev olmaqla göstərilən diqqətə və qonaqpərvərliyə görə Milli Məclisin üzvlərinə, YAP rəhbərliyinə təşəkkür edirik. "Şuşa Bəyannaməsi" ilə bağlı keçirilən bu konfrans da qardaş ölkələrimiz arasında gələcək əməkdaşlıqların və əlaqələrin yeni müstəvidə inkişafına zəmin yaratdı", - deyə N.Kurtulmuş vurğulayıb.

## Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyulun 28-də Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Quo Min ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub, iqtisadi-ticari, nəqliyyat-tranzit, investisiya, informasiya-kommunikasiya texnologiyaları, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin görüşdə Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti iclasının keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

## Azərbaycan və İranın XİN başçıları bölgədəki son vəziyyətlə bağlı danışıblar

İyulun 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasındakı əməkdaşlıq gündəliyinin bəzi məsələləri üzrə, habelə bölgədəki son vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

## Rusiya Prezidenti Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Azərbaycan-Ermənistan sərhədində vəziyyəti müzakirə edib

Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Azərbaycan-Ermənistan sərhədində vəziyyəti müzakirə edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov məlumat verib.

O deyib ki, Prezident Vladimir Putin Rusiya Təhlükəsizlik Şurasının daimi üzvləri ilə operativ müşavirə keçirib. Müşavirədə ölkənin sosial-iqtisadi inkişafı, Əfqanıstanda, Azərbaycan-Ermənistan sərhədində vəziyyət müzakirə olunub.

## *Ceyhun BAYRAMOV:* "Bakı Bəyannaməsi ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı əməkdaşlığın daha da inkişafına töhfə verəcək"

İyulun 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Milli Məclisinin Sədri, Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri və Türkiyə Böyük Millət Məclisinin Sədri arasında ilk üçtərəfli görüşün keçirilməsini böyük tarixi hadisə kimi qiymətləndirib və bu münasibətlə təbriklərini çatdırıb.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop üç qardaş ölkə arasındakı mövcud dostluq və qardaşlıq münasibətlərinin həm ölkələrimizin və xalqlarımızın rifahına, həm də bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına xidmət etdiyini vurğulayıb. O, parlament diplomatiyası çərçivəsində üç ölkə nümayəndələrinin bir araya gəldiyini məmnunluqla qeyd edib. Mustafa Şentop həmçinin Azərbaycanın ərazilərini işğaldan azad etməsi ilə bağlı bölgədəki cari vəziyyətə toxunaraq, Azərbaycanın Ermənistan ilə sülh müqaviləsinin imzalanmaq təklifini çox mühüm addım kimi dəyərləndirib. Azərbaycanın humanitar sahədə önəmli addımlar atdığını qeyd edən Türkiyə Böyük Millət Məclisinin Sədri Ermənistan tərəfindən bütün mina xəritələrinin Azərbaycana verilməsinin zəruri olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov öz növbəsində üç qardaş ölkənin parlament rəhbərlərinin görüşünün nəticəsi olaraq Bakı Bəyannaməsinin imzalandığını məmnunluqla qeyd edib. O, bu hadisənin qarşılıqlı əməkdaşlığın daha da inkişafına töhfə verəcəyindən əminliyini ifadə edib. Nazir dövlətlərimiz arasında əlaqələrin xüsusi önəm daşıdığını, bu münasibətlərin geniş və hərtərəfli olduğunu vurğulayıb.

2021-ci ilin yanvarında İslamabadda üç ölkənin xarici işlər nazirlərinin bir araya gədiyini xatırlayan nazir Ceyhun Bayramov ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf etməkdə olduğunu vurğulayıb. Nazir həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfərini və imzalanmış Şuşa Bəyannaməsini tarixi hadisə kimi qiymətləndirib. Azərbaycan xalqının 44 günlük Vətən müharibəsinin başladığı ilk gündən etibarən Türkiyə xalqının başda Türkiyə Prezidenti olmaqla, bütün səviyyələrdə dəstəyini hiss etdiyini və bunun yüksək dəyərləndirildiyini vurğulayıb. Nazir hazırda Türkiyənin bölgədə sülhün təmin olunması istiqamətində tam dəstəyini hiss etdiyimizi və bunu alqışladığımızı qarşı tərəfin diqqətinə çatdırıb.

Görüş zamanı tərəflər eyni zamanda Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin gündəliyi üzrə, o cümlədən parlament əməkdaşlığı istiqamətində, habelə regional təhlükəsizlik mövzuları ətrafında geniş fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin çoxtərəfli platformalarda və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələlərini müzakirə ediblər.

## Azərbaycanın xarici işlər naziri Pakistan Milli Assambleyasının Sədri ilə görüşüb

İyulun 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Əsəd Qeysər ölkəmizin ərazilərini azad etməsi münasibətilə təbriklərini çatdıraraq Pakistan xalqının bu Qələbəni Azərbaycan xalqı ilə birgə qeyd etdiyini vurğulayıb. O, Pakistanın Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini, ərazi bütövlüyünü hər zaman dəstəklədiyini bildirib. Ə.Qeysər Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrləri arasında ilk üçtərəfli görüşdə iştirakından məmnunluq duyduğunu ifadə edib. Ölkələrimiz arasında parlamentlər səviyyəsində əməkdaşlığı, hər iki tərəfdən parlament dostluq qruplarının fəaliyyətinin müsbət təcrübəsinə istinad edən Milli Assambleyanın Sədri bu əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsinin ölkələrimiz arasındakı münasibətlərin inkişafına müsbət töhfə verəcəyini söyləyib. O, həmçinin Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir üzrə Təmas Qrupu çərçivəsində fəal iştirakını qeyd edib.

Nazir Ceyhun Bayramov təbrikə görə Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədrinə təşəkkürünü bildirib. O, bu ilin əvvəlində İslamabadda keçirilən üç ölkənin xarici işlər nazirlərinin görüşünə istinad edərək, üçtərəfli formatda təşkil olunan toplantıların qardaş ölkələr arasında əlaqələrin inkişafına ciddi töhfə verdiyini vurğulayıb. Azərbaycanın Cəmmu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həllini dəstəklədiyini qeyd edib. Nazir səfər çərçivəsində Pakistan Milli Assambleyasının nümayəndə heyətinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya gedərək oradakı vəziyyətlə və ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyası ilə tanış olmaq imkanını vurğulayıb.

Qarşı tərəfə postmünaqişə mərhələsi, azad olunmuş ərazilərdəki mina təhlükəsi, həyata keçilən bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib. Ermənistan tərəfindən hələ də destruktiv mövqe nümayiş edildiyini vurğulayan nazir qarşı tərəfin son zamanlar sərhəd bölgəsində vəziyyəti gərginləşdirmək cəhdlərini qınayıb və Ermənistanı təxribatlardan əl çəkərək, iki dövlətin sərhədinin delimitasiyası üzrə danışıqlara başlamasının regional sülh və təhlükəsizliyin təmin olunması baxımından vacibliyini bildirib.

Tərəflər, habelə Azərbaycan ilə Pakistan arasında iqtisadi, ticarət, humanitar, enerji, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı üzrə fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin regional təhlükəsizlik, iqlim dəyişikliyi üzrə məsələlər müzakirə edilib.

## UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbərinin diplomatik fəaliyyət müddəti başa çatır

İyulun 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardinlə diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Edvard Karvardinin ölkəmizdə diplomatik fəaliyyətini yüksək dəyərləndirərək Azərbaycanın UNICEF-lə münasibətlərinin inkişafına verdiyi töhfəyə görə təşəkkürünü bildirib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Edvard Karvardin Azərbaycan ilə UNICEF arasında bir çox sahələrdə əlaqələrin cari vəziyyəti və inkişaf perspektivlərinə toxunub, ölkəmizdə həyata keçirilən layihələrdən danışıb, o cümlədən təhsil sahəsində uğurlu əməkdaşlığın həyata keçirilməsindən bəhs edib. C.Bayramov həmsöhbətinə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin nəticələrindən, o cümlədən dinc azərbaycanlı sakinlərin, evlərin, məktəblərin və digər mülki obyektlərin məqsədli şəkildə hədəfə alınmasından danışıb. O, işğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası, mədəni və dini abidələrə dəymiş ziyan, mina təhlükəsi, sərhəddə gərginliyin səbəbləri, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Nazir Ermənistanın mina xəritələrini təqdim etməsinin ərazilərin minalardan təmizlənməsini sürətləndirməklə yanaşı, bərpa və yenidənqurma işlərinin tez bir zamanda həyata keçirilməsinə də müsbət təsir göstərəcəyini bildirib. Bunun öz növbəsində məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı prosesinə və infrastruktur layihələrinin reallaşmasına təkan verəcəyini deyib.

Edvard Karvardin azad edilmiş ərazilərə səfəri zamanı oradakı dağıntıların miqyasının şahidi olduğunu bildirib. Münaqişə nəticəsində ailələrə və uşaqlara dəyən ziyandan məyusluğunu ifadə edib. O, həmçinin azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işlərinin şahidi olduğunu, bu xüsusda, ailələrin öz doğma yurdlarına tezliklə geri dönəcəyinə ümid etdiyini vurğulayıb.

Nümayəndəliyin rəhbəri Azərbaycanı ən xoş arzularla tərk etdiyini deyib və ölkəmizlə bağlı xoş təəssüratlarının daim xatirində qalacağını söyləyib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri ABŞ-ın Oklahoma ştatının nümayəndə heyəti ilə görüşüb

İyulun 28-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi və həmin ştatın Milli Qvardiyasının komandanı general-mayor Maykl Tompsonun təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Z.Həsənov azad edilmiş ərazilərdə, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış son vəziyyətə toxunaraq baş vermiş bugünkü insidentlə bağlı qonaqlara ətraflı məlumat verib, gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

Nazir əməkdaşlığın müxtəlif istiqamətləri üzrə iki ölkə arasında əldə edilmiş müsbət nəticələrdən, Oklahoma ştatının milli qvardiyası ilə Azərbaycan Ordusu arasında qarşılıqlı əlaqələrin cari vəziyyətindən məmnunluğunu ifadə edərək bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Oklahoma ştatının qubernatoru Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı “Qətiyyətli dəstək” qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud hərbi əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Ötən il qazanılan qələbənin Azərbaycan Ordusunun yüksək hazırlığının göstəricisi olduğunu qeyd edən general-mayor M.Tompson şəhid olanların ailələrinə başsağlığı verib.

Görüşdə tərəflər Azərbaycan Ordusu ilə Oklahoma ştatının Milli Qvardiyası arasında Tərəfdaşlıq Proqramı çərçivəsində keçirilən birgə tədbirlərə dair fikir mübadiləsi aparıblar.

# ABŞ-ın Stirlinq Fondunun baş icraçı direktoru Azərbaycandakı tolerant mühit barədə məlumatlandırılıb

İyulun 28-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan ABŞ-ın Stirlinq Fondunun baş icraçı direktoru Ed Rou ilə görüşüb.



İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, QMİ-nin sədri bildirib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq tarixən müxtəlif millətlərin və konfessiyaların qarşılıqlı anlaşma, sülh şəraitində yaşadığı bir dövlətdir. Multikulturalizm və tolerantlıq dini baxışlarından və milli kimliyindən asılı olmayaraq, hər bir ölkə vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Son illər ölkəmizdə keçirilən Dünya Dini Liderlərinin sammitləri, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, bu toplantılarda dünyaya verilən mühüm mesajlar barədə danışan Şeyxülislam Allahşükür Paşazadə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürülən “Bakı prosesi”nin qlobal dünyada sivilizasiyalararası dialoqun möhkəmlənməsində mühüm rol oynadığını xüsusi vurğulayıb, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın belə genişmiqyaslı tədbirlərin keçirilməsinə göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirib.

QMİ-nin sədri bildirib ki, Azərbaycan öz tarixinin yeni bir mərhələsinə qalib bir ölkə kimi qədəm qoyub, 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz Müzəffər Ali Baş Komandanın əmri və rəşadətli Ordumuzun gücü ilə azad edilib. Uzun illər erməni silahlı qüvvələrinin nəzarəti altında olmuş şəhər və kəndlərimizdə 64 məscidin, ziyarətgah və qəbiristanlıqların vəhşicəsinə məhv edildiyini, o cümlədən digər dinlərə məxsus məbədlərin dağıdıldığını, kilsələrin tarixinin saxtalaşdırılaraq erməni kilsəsinə aid abidə kimi dünyaya təqdim olunduğunu, basdırılan minaların partlaması nəticəsində bu gün də çoxlu sayda mülki şəxslərin həlak olduğunu, təbiətə, ətraf mühitə ciddi ziyan vurulduğunu qeyd edən Şeyxülislam Allahşükür Paşazadə dünya ictimaiyyətini belə hallara qarşı birgə və daha səmərəli mübarizəyə səsləyib.

İşğaldan azad olunan Ağdam və Şuşa şəhərlərinə Azərbaycandakı müxtəlif konfessiyaların rəhbərləri ilə birgə səfəri barədə qonağa məlumat verən QMİ-nin sədri bildirib ki, hər iki şəhərdə məscidlərdə, kilsə və məbədlərdə uzun illərdən sonra dini ayinlər icra olunub, regionda və dünyada sülhün, sabitliyin davamlı olması üçün birgə dualar edilib. Azad olunan ərazilərdə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə böyükhəcmli quruculuq işlərinə başlandığını diqqətə çatdıran QMİ sədri Azərbaycanın hər zaman sülhsevər dövlət olduğunu, dostluq və əməkdaşlığa xüsusi önəm verdiyini, lakin ərazi bütövlüyünə hər hansı bir təhdid yaranacağı təqdirdə öz hərbi qüdrətini göstərməyə, düşmənə “dəmir yumruq”la cavab verməyə hazır olduğunu bildirib.

QMİ-nin nəzdində Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin fəaliyyət göstərdiyini və bu qurumun xətti ilə Almaniyada, Avstriyada, İspaniyada, Türkiyədə və digər ölkələrdə müxtəlif konfransların keçirildiyini diqqətə çatdıran Şeyxülislam ABŞ-dakı nüfuzlu yəhudi icmalarının da bu tədbirlərdə yaxından iştirak etdiyini, Stirlinq Fondu ilə də daha sıx əlaqələrin qurulmasında maraqlı olduğunu deyib.

Stirlinq Fondunun baş icraçı direktoru Ed Rou səmimi qarşılanmaya görə minnətdarlığını bildirib, təkcə Qafqaz regionunda deyil, dünyada sülhün qorunmasında Şeyxülislam həzrətlərinin mühüm xidmətlər göstərdiyini qeyd edib.

Ed Rou bildirib ki, Azərbaycan xalqının multikultural dəyərlərə sadiqliyi, ərazisi işğalda qalarkən keçirdiyi ağrılar ona yaxşı tanışdı. Amerikalı qonaq deyib ki, o, 20 il əvvəl işi ilə bağlı bir müddət Bakıda, doğma yurd yerindən qaçqın düşən ailələrlə qonşuluqda yaşayıb. Ötən bu illər ərzində ölkəmizin böyük inkişaf yolu keçdiyini deyən Ed Rou xalqımıza davamlı sülh və sabitlik arzulayıb.

2020-ci ilin martında Stirlinq Fondunun dəvəti ilə Azərbaycandakı dini konfessiyaların təmsilçilərindən ibarət nümayəndə heyətinin ABŞ-ın Yuta ştatına səfəri, rəsmilərlə, din xadimləri və vətəndaş cəmiyyətinin fəalları ilə keçirilən görüşlər barədə məlumat verib. Bildirib ki, bu ilin noyabrında Yuta ştatını təmsil edən din xadimlərinin, nüfuzlu alimlərin Azərbaycana səfəri planlaşdırılır. Dini mərkəz olaraq QMİ ilə əlaqələrin möhkəmlənməsində maraqlı olduğunu deyən fondun baş icraçı direktoru Şeyxülislam Allahşükür Paşazadəni ABŞ-a dəvət edib.

Görüşdə iştirak edən Azərbaycandakı Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete, Azərbaycandakı Avropa Yəhudiləri Dini icmasının rəhbəri Aleksandr Şarovski, Rus Pravoslav Kilsəsinin protoiereyi Mefodi Əfəndiyev, Alban-udi dini icmasının rəhbəri Robert Mobili Azərbaycandakı tolerantlıq və multikultural mühitin dünya üçün bir nümunə olduğunu qeyd edib, ölkəmizdə yaşayan müxtəlif dinlərin ardıcıllarına yaradılan şəraitdən razılıqlarını bildiriblər.

Sonda qonağa xatirə hədiyyəsi təqdim olunub.

# Azərbaycanla Moldova arasında dostluq və əməkdaşlıq müxtəlif sahələrdə inkişaf edir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizdə səfərdə olan Moldova Respublikası Milli Sosial Sığorta Kassasının nümayəndə heyəti ilə görüşüb.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir ötən dövrdə Azərbaycanla Moldova arasında dostluq və əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyini diqqətə çatdırıb.

S.Babayev Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin nailiyyətləri, Azərbaycanda aparılan sosial islahatlar proqramı, sosial inkişaf istiqamətində əldə olunan uğurlar barədə məlumat verib. Ölkəmizin yeni brendinə çevrilən DOST konsepsiyasından bəhs edən nazir milli sosial təminat sisteminin gücləndirilməsi, sosial ödənişlərin artırılması sahəsində ardıcıl addımların atıldığını diqqətə çatdırıb. Sosial sığorta və sosial təminat sahəsində e-xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, proaktiv xidmətlərin tətbiqi işlərini qeyd edib.

Nümayəndə heyətinin rəhbəri, Moldovanın Milli Sosial Sığorta Kassasının Baş direktorunun müavini Svetlana Daskal ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb. O, ölkəsində sosial sahədə aparılan islahatları, sosial sığorta sisteminin təkmilləşdirilməsi üçün görülən işləri qeyd edib. Dövlət Sosial Müdafiə Fondu ilə təcrübə mübadiləsinin onlar üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Görüşdə müasir sosial sığorta və təminat sistemləri qarşısında dayanan yeni çağırışlara və reallaşdırılan islahatlara, Moldovanın Milli Sosial Sığorta Kassası ilə qarşılıqlı faydalı ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Möhtəşəm ittifaq

*Əvvəli 1-ci səh.*

Hər üç ölkə bu gün həm beynəlxalq aləmdə, həm də öz regionlarında aparıcı, öz sözü olan dövlətdir. Hər üç dövlət müstəqil xarici siyasət həyata keçirir. Eyni zamanda üç ölkə arasında mövcud olan qarşılıqlı faydalı əməkdaşlığın beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu var.

## Əməkdaşlığın yeni yüksəliş mərhələsi

44 günlük Vətən müharibəsində haqlı mübarizəmizdə qardaş ölkələr - Türkiyə və Pakistan tərəfindən açıq siyasi və mənəvi dəstək göstərilməsi müttəfiqliyin ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi. İndi isə üçtərəfli platformanın yaradılması bu əlaqələrə böyük töhfə vermiş olacaq. Bakı Bəyannaməsi üç ölkənin dostluğunu bundan sonra da yüksək səviyyədə saxlayacağını təsdiqləyən sənəddir.

Bu gün həmçinin Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunmasının tərəfdarıdır. Hər zaman Azərbaycanın haqq işini, mövqeyini dəstəkləyən Türkiyə və Pakistan da bu prosesə öz töhfələrini verə bilərlər.

Bəyannamədə hər 3 ölkənin beynəlxalq platformalarda birlikdə hərəkət etmək məsələsi də yer alıb. Yəni 3 ölkənin parlamentariləri iştirak edəcəkləri istənilən beynəlxalq toplantıda bir-birilərinin mövqeyini müdafiə edəcəklər. Əgər tərəflərdən biri və ikisi həmin toplantıda iştirak etməsə, iştirak edən tərəf bu addımı atacaqdır. Bakı Bəyannaməsində göstərildiyi kimi üç ölkənin parlamentləri arasında əməkdaşlıq və əlaqələr daha da inkişaf etdirilib möhkəm bağlarla gücləndiriləcəkdir.

Bir sözlə, 3 dost və qardaş ölkə bərabərlik, tərəfdaşlıq, qarşılıqlı hörmət və müstəqillik prinsiplərinə söykənərək münasibətlərin, əməkdaşlığın yeni yüksəliş mərhələsinə qədəm qoydu. Qeyd edək ki, Bakı görüşündə Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin ikinci üçtərəfli görüşünün 2022-ci ildə İslamabad şəhərində keçirilməsi qərara alınıb.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# *Müdafiə Nazirliyi*: “Kəlbəcər istiqamətində gərginlik davam edir”

İyulun 28-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində başladığı təxribatın qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən qarşı tərəfin atəş nöqtələrinin neytrallaşdırılması istiqamətində zəruri addımlar atılıb. Ermənistan ərazisində guya mülki obyektlərə zərərin yetirilməsi barədə xəbərlər yalandır və sırf dezinformasiya məqsədi daşıyır. Ermənistan hərbi-siyasi rəhbərliyi ənənələrinə sadiq olaraq Ermənistan ictimaiyyətini və beynəlxalq aləmi çaşdırmaq üçün yalan məlumatlar yaymaqda davam edir.

Ermənistanın hərbi-siyasi rəhbərliyini iki ölkənin dövlət sərhədində hərbi avantüra məqsədi daşıyan təxribatlar və vəziyyəti qəsdən gərginləşdirmək əməllərindən çəkinməyə və sivil qaydada dövlət sərhədinin delimitasiyası üzrə danışıqlara başlamağa çağırırıq. Bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət tam olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığını təmin etmək üçün Ermənistanın bütün təxribatlarının qarşısı bundan sonra da qətiyyətlə alınacaqdır.

# *Müdafiə Nazirliyi:* “Ermənistan atəşkəs rejiminin tələblərinə əməl etmir”

Ermənistan-Azərbaycan dövlət sərhədində iyulun 28-i Bakı vaxtı ilə saat 10:00-dan etibarən atəşkəsin elan edilməsi ilə bağlı Rusiya tərəfinin təşəbbüsü tərəfimizdən qəbul olunub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, buna baxmayaraq, Ermənistan tərəfi əlavə olaraq tank və 120 millimetrlik minaatanlardan istifadə etməklə vəziyyəti gərginləşdirməkdə və mövqelərimizi atəşə tutmaqda davam edir.

# *Xarici İşlər Nazirliyi:* “Dövlət sərhədində vəziyyəti gərginləşdirməyin məsuliyyəti tam olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir”

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, iyulun 28-də Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki mövqelərini intensiv atəşə tutub. Nəticədə iki hərbi qulluqçumuz yaralanıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan-Azərbaycan dövlət sərhədində növbəti təxribatı törədərək vəziyyəti gərginləşdirməyin məsuliyyəti tam olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir. Ermənistanı bölgədə yaranmış yeni reallıqları qəbul etməyə, hərbi təxribatlara son verməyə və iki dövlət sərhədinin delimitasiyası üzrə danışıqlara başlamağa çağırırıq.

Azərbaycan beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq hüququnu özündə saxlayır və ərazi bütövlüyümüzə qarşı atılacaq hər hansı addımlar qətiyyətlə cavablandırılacaq.

# Qeyri-neft sektorunun inkişafında regionların rolu artır

## İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru da cənnətə çevirməkdə israrlıdır

Ölkəmizin hərtərəfli inkişafında və əhalinin sosial rifahının daha da yaxşılaşmasında regionların sosial-iqtisadi tərəqqisinin mühüm rolu və əhəmiyyəti danılmaz reallıqdır.



Bölgələrin inkişafı həmçinin ərzaq təhlükəsilziyinin və məşğulluğun təmin edilməsində önəmli rola malikdir. Prezident İlham Əliyevin regionlara müntəzəm səfərləri və həmin səfərlər çərçivəsində çoxsaylı obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirak etməsi, eyni zamanda yeni layihələrin gerçəkləşməsi üçün sərəncamlar imzalaması isə bu inkişafa əlavə təkan verir.

2004-cü ildən həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası bölgələrimizin simasını tamamilə dəyişmişdir. Məhz bu proqramların icrası sayəsində regionlarda minlərlə sosial-iqtisadi obyektlər fəaliyyətə başlamış və nəticədə həm yerlərdə əhalinin məşğulluğu təmin olunmuş, həm də qeyri-neft məhsullarının istehsalı artmışdır.

Daşkəsən rayonundakı “AzerGold” QSC-nin “Çovdar” İnteqrəolunmuş Regional Sahəsinin fəaliyyəti də qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Bu müəssisənin fəaliyyətə başlaması sayəsində ölkədə qeyri-neft sahəsində qızılın ixracı yüksək səviyyəyə yüksəlmişdir. Belə ki, 2016-cı ildə QSC-nin “Çovdar” qızıl mədəni fəaliyyətə başlayandan indiyədək burada 252 min unsiya qızıl istehsal edilmişdir. Qarşıdakı illər ərzində hasilatın daha da artırılaraq 338 min unsiya qızıl istehsalına nail olmaq proqnozlaşdırılmışdır. İstehsalın düzgün qurulması, müasir texnika və texnologiyalardan istifadə edilməsi nəticəsində ölkə iqtisadiyyatına xarici valyutada 640 milyon manata yaxın vəsait cəlb olunmuşdur. Onu da qeyd edək ki, indiyədək ümumilikdə 245 min unsiyadan çox qızıl və 434 min unsiyadan artıq gümüş ixrac edilmişdir.

Gələcəkdə Zəngilandakı Vecnəli və Kəlbəcərdəki Söyüdlü qızıl yataqlarının istismara verilməsi bu sahə üzrə ölkəmizin ixrac potensialını daha da artıracaq.

Məlumdur ki, Azərbaycan neft-qazla yanaşı, zəngin filiz yataqlarına da malikdir. Ölkəmiz sovet dönəmindən bu sahədə zəngin təcrübə əldə etmişdir. İndi həmin yataqların müasir texnika və texnologiyalardan istifadə edilməklə istismar olunması daha yüksək gəlirə imkan yaradacaq. Həm də bu işlər ətraf mühitə ziyan vurmadan həyata keçiriləcək.

Dövlət başçısının müvafiq sərəncamı ilə metallurgiya sənayesini inkişaf etdirmək məqsədilə “Daşkəsən Dəmir Filiz” MMC “AzerGold”un fəaliyyət sahəsinə daxil edilmişdir. Məqsəd qısa müddət ərzində dəmir filiz yataqlarının istismara verilməsini və metal qırıntılarını əvəzləyən, həmçinin daha keyfiyyətli metallurgiya məhsullarının istehsalı üçün xammala olan tələbatın təmin edilməsini yaxşılaşdırmaqdır.

Amma ölkəmizdə iqtisadi layihələrlə yanaşı, sosial infrastrukturun yaradılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin bölgələrə səfərləri zamanı bu cür obyektlərin açılışını etməsi də bunun təsdiqidir.

Belə müəssisələrdən biri Naftalan Mərkəzi Sanatoriyasıdır. Ümumiyyətlə, Naftalan qədimdən öz müalicəvi nefti ilə məşhur olmuşdur. Bu sağlamlıq ocağına vaxtilə SSRİ-nin müxtəlif yerləri ilə yanaşı, xarici ölkələrdən də gəlirdilər. Şəhərdə infrastrukturun qurulmasına və sağlamlıq ocaqlarının imkanlarının genişləndirilməsinə Ümummilli Lider Heydər Əliyev böyük qayğıkeşlik göstərmişdir. Bu kiçik şəhərdə müalicə olunanların rahatlığı üçün Ulu Öndərin təşəbbüsü ilə 1977-ci ildə hava limanı tikilərək istifadəyə verilmişdir. Lakin Ermənistanın işğalçı siyasəti başlayandan hava limanının fasiləsiz atəşə tutulması 1997-ci ildə onun fəaliyyətinin dayandırılmasına səbəb olmuşdur. Vətən müharibəsi zamanı da ermənilər bu şəhəri dəfələrlə atəşə tutmuşlar.

Bu gün Naftalandakı kurort-sanatoriya müəssisələrində 1000 nəfərdən çox işçi çalışır. Yeni sanatoriya da həm şəhər əhalisinin məşğulluğunun təminatına əlavə imkan verəcək, həm də turistlərin sayını artıracaq. Yeri gəlmişkən qeyd edək ki, son illər Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilmişdir. Bu gün şəhərdəki sağlamlıq mərkəzləri gün ərzində 3 minə yaxın turistə xidmət göstərmək imkanına malikdir. Həmin müəssisələrdə xidmətin yüksək olması əcnəbilər üçün də cəlbedicidir. Pandemiyadan öncə - 2019-cu ildə 60 ölkədən 1200-dən çox turist şəhərdəki müəssisələrin xidmətindən istifadə etmişdir. Nəzərə alsaq ki, cari il Naftalanda daha 4 sanatoriya kompleksinin açılışı gözlənilir, onda pandemiya qadağalarının səngiyəcəyi halda şəhərə daha çox əcnəbi qonağın gələcəyi şübhəsizdir. Elə bu reallığın özü ölkə iqtisadiyyatının əsasən qeyri-neft sektoruna kökləndiyini göstərir.

Yeri gəlmişkən qeyd edək ki, dövlət başçısı bu yaxınlarda Azərbaycan Televiziyasına verdiyi müsahibədə ölkə iqtisadiyyatı ilə bağlı geniş məlumat vermişdir. Bildirmişdir ki, cari ilin 6 ayında ölkə iqtisadiyyatında müsbət dinamika müşahidə edilir. OPEC+ razılaşmasının yerinə yetirilməsi ilə bağlı sənaye istehsalında 0,3 faiz azalma olsa da, qeyri-neft sənayesində 16,6 faiz artım var və bu rəqəmin ilin sonunda daha da yüksəlməsi gözlənilir.

Müsahibədən məlum olur ki, 6 ayda ümumi məhsul ixracında 15, qeyri-neft məhsullarının ixracında isə 27 faiz artım qeydə alınmışdır. İxracın artması xarici ticarətdə müsbət saldonun yaranmasına da öz təsirini göstərmişdir. Cari ilin birinci yarısında müsbət saldonun dəyəri 3,4 milyard dollardır və ilin sonuna qədər bu rəqəmin 6-7 milyard dollar olması proqnozlaşdırılır. Onu da qeyd edək ki, hazırda koronavirus pandemiyası ilə bağlı dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkəmizin bu sahədə əldə etdiyi uğurlar göstərir ki, aparılan islahatlar iqtisadiyyatımızın dinamik inkişafını və xarici təsirlərə çevik cavab vermək qabiliyyətini təmin edir.

Prezident vurğulamışdır ki, yarım ildə valyuta ehtiyatlarımız da 1 milyard dollar artmışdır. İndi ölkəmizin 52 milyard dollar valyuta ehtiyatı var. Dünyanın inkişaf etmiş ölkələri sürətlə borclanmaya getdiyi halda, ölkəmizin belə bir problemi yoxdur. Halbuki inkişaf etmiş bir çox ölkələrdə borc ümumi daxili məhsulun 100, bəzən 120 faizini təşkil edir. Azərbaycanda isə bu rəqəm cəmi 19 faizdir.

Dövlət başçısı müsahibəsində işğaldan azad edilən ərazilərdə görülən işlər barədə də geniş söhbət açmışdır. Bildirmişdir ki, həmin ərazilərdə 3 aeroport tikilir, “Zəfər” yolunda görülən işlərin sentyabr ayında tamamlanması gözlənilir. Bununla paralel olaraq, Füzuli-Şuşa, 4-6 zolaqlı Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yolları çəkilir, yüksək dağlıq rayonu olan Kəlbəcərə rahat gedib-gəlmək üçün Göygöl rayonu ərazisindən Ömər aşırımı üzərindən yolun tikintisi aparılır. Həmin yoldan ilin bütün fəsillərində istifadə etmək mümkün olacaq.

Ən vacibi isə odur ki, bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına görür: “Onu da bildirməliyəm ki, biz bütün bu işləri öz hesabımıza edirik. Bütün xərcləri öz hesabımıza edirik, heç bir yerdən bir manat yardım almamışıq. Bəli, xarici şirkətləri biz dəvət etmişik, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən gedir. Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik”.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# AŞ PA-nın ekspertlərinə Vətən müharibəsində və sonrakı dövrdə Ermənistan silahlı qüvvələrinin törətdiyi cinayətlər barədə məlumat verilib

Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin nümayəndə heyətinin üzvləri - "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri mövzusu" üzrə məruzəçi Pol Qavan, Komitə Katibliyinin rəhbəri Mark Nevil və Avropa Şurasının Bakı Ofisinin nümayəndəsi Kirilo Boiçeniuk ilə iyulun 28-də Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə rəisi Elnur Musayev arasında görüş keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Şurasının ekspertlərinə Vətən müharibəsinin gedişində və müharibədən sonrakı dövrdə beynəlxalq humanitar hüquq və insan hüquqları pozuntularının araşdırılması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat verilib. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində kütləvi şəkildə insan hüquqlarının pozulması ilə müşayiət olunan cinayət xarakterli əməllərə verilmiş hüquqi qiymət, dəymiş ziyanın müəyyən olunması üçün aparılmış istintaq tədbirləri barədə məlumat görüş iştirakçılarının diqqətinə çatdırılıb. Azərbaycan Respublikası Baş Prokurorluğunda işğaldan azad edilmiş ərazilərdə qanunsuz sahibkarlıq və iqtisadi fəaliyyət, ətraf mühitə vurulmuş ziyan ilə bağlı hazırda istintaqı aparılan cinayət işləri barədə də məlumat verilib.

AŞ PA nümayəndə heyətinin üzvləri münaqişənin səbəb olduğu insan hüquqlarının pozulması halları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Vətən müharibəsində yaralanmış qazilərin yüksək texnologiyalı protezlərlə təminatı davam etdirilir

Vətən müharibəsində yaralanmış qazilərdən daha bir qrupu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunub.





AZƏRTAC xəbər verir ki, yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir, "Genium" sistemi üzrə hazırlanan protezlər elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, sabit, təhlükəsiz və inamlı hərəkətə imkan yaradır. İstifadəçiyə yenidən sərbəst və rahat hərəkət imkanı verir.

Ümumilikdə, Vətən müharibəsi zamanı xəsarət alaraq aşağı ətrafları amputasiya olunmuş 109 qazi 113 yüksək texnologiyalı protezlə təmin olunub.

Yuxarı ətrafları amputasiya olunmuş qazilərin də son nəsil protezlərlə təminatı üçün işlər davam edir. Vətən müharibəsində yaralanmış 32 qazi ən son texnologiyalı protezlə təmin ediləcək.

Bu ilin martından ilk dəfə olaraq əlilliyi olan şəxslərin mühərrikli təkərli oturacaqla təminatına da başlanıb. İndiyədək əlilliyi olan 562 şəxsə mühərrikli təkərli oturacaq verilib və onların bir hissəsi müharibə əlilləridir.

Postmüharibə dövründə nazirliyin reabilitasiya müəssisələrində 1040-dək qazi və şəhid ailəsi üzvü sosial-psixoloji, 233 nəfər müharibə iştirakçısı isə reabilitasiya xidmətləri ilə əhatə olunub. Onlar klinik və sosial psixoloqlar tərəfindən əyani və onlayn, qrup və fərdi şəkildə psixoloji seanslara cəlb olunublar.

Hazırda da həmin xidmətlərin göstərilməsi prosesi davam edir.

# Bakıda sayca 3-cü "ASAN kommunal" açıldı

## Ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək yeni mərkəzdə 110 növ xidmət həyata keçiriləcək

Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 3 saylı "ASAN kommunal" mərkəzinin açılış mərasimi keçirilib.





Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov, Dövlət Neft Şirkəti "Azəriqaz" İstehsalat Birliyinin Baş direktoru Ruslan Əliyev, "Azərsu" ASC-nin sədr müavini və sədr vəzifəsini icra edən Köçərli Həsənov və digər rəsmilər iştirak ediblər.

Fiziki və hüquqi şəxslərə kommunal və digər müştəri xidmətlərinin vahid məkanda "ASAN xidmət" mərkəzlərinin fəaliyyət prinsipləri və standartları əsasında göstərilməsini təmin edən "ASAN kommunal" mərkəzləri Prezident İlham Əliyevin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanı ilə yaradılıb.

3 saylı "ASAN kommunal" mərkəzi Bakı şəhərində sayca üçüncüdür. "ASAN kommunal" mərkəzi olmayan bölgələrdə isə kommunal xidmət sahələri bütün regional "ASAN xidmət" mərkəzlərinin inzibati binalarında təşkil edilib.

Yeni mərkəz Bakı şəhəri, Nizami rayonu, Tofiq Abbasov, 38 ünvanında inşa edilmiş çoxmərtəbəli binanın birinci və ikinci mərtəbələrində fəaliyyət göstərəcək.

3 saylı "ASAN kommunal" mərkəzi üçün ayrılmış inzibati ərazidə təmir və quraşdırılma işləri 2018-ci ilin avqust ayında başlanıb, 2021-ci ilin iyul ayında başa çatıb. Mərkəzdə videomüşahidə, elektron növbə sistemləri, inzibati binada 1 lift, yanğınsöndürmə sistemi, mərkəzləşdirilmiş havalandırma və istilik sistemi, çiller, generator, UPS quraşdırılıb. 3 saylı "ASAN kommunal" mərkəzində "Azəriqaz" İB, "Azərişıq" ASC və "Azərsu" ASC tərəfindən 52, ümumilikdə isə 110 növ xidmət həyata keçiriləcək.

Əsasən Nizami (201.800), Xətai (289.900) və Sabunçu (247.200) rayonlarında qeydiyyatda olan ümumilikdə 738,900 vətəndaşın əhatəsində olan mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Mərkəzdə əməkdaşların sayı 90, könüllülərin sayı 15 nəfər nəzərdə tutulur. Vətəndaşların istirahəti və rahatlığı üçün kafe və uşaq oyun guşəsinin də yaradılması planlaşdırılır. Konsept təhlükəsizlik tədbirlərini nəzərdə tutan sistemlərin də quraşdırılması təmin edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yarımillik xarici ticarət saldosu müsbətdir

*Əvvəli 1-ci səh.*

Prezidenti İlham Əliyev bu il iyulun 22-də Daşkəsən rayonuna səfəri çərçivəsində "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olduqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə demişdir: "Xarici ticarətimizin müsbət saldosu 3,4 milyard dollardır, ancaq 6 ayda. Əgər belə getsə, ilin sonuna qədər müsbət saldo təqribən 6-7 milyard dollar olacaq. Dünya ölkələrinin əksəriyyətində saldo mənfidir, yəni, daha çox idxal edir, nəinki ixrac edir. Ona görə bu valyuta məzənnəsinə təsir göstərir, ona görə ölkələr borclanmaya gedirlər. İnkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun 100 faizini, bəzən 120 faizini təşkil edir, 50 faiz müsbət hal kimi sayılır. Amma Azərbaycanda bu, 19 faizdir və daha da düşəcək. Çünki göstəriş vermişəm ki, ildən-ilə borcumuzu azaltmalıyıq. Mən indi, əlbəttə, Ermənistanla Azərbaycanı müqayisə etmək istəmirəm. Burada, tamamilə yerlə göy qədər fərq var".



Dövlət Gömrük Komitəsinin statistik məlumatlarına əsasən, 2021-ci ilin yanvar-iyun ayları ərzində ölkəmizin xarici ticarət dövriyyəsi 14 milyard 202,26 milyon ABŞ dolları təşkil edib. Bunun da 8 milyad 811,10 milyon dolları ixracın, 5 milyard 391,16 milyon dolları idxalın payına düşüb. 3 milyard 419,94 milyon dollarlıq müsbət saldo yaranıb.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 89,9 faizi qonşu dövlətlər olan Türkiyə, Rusiya, İran, Gürcüstan, eyni zamanda İtaliya, Çin, İspaniya, Ukrayna, Almaniya, Birləşmiş Krallıq, İsrail, ABŞ, Yaponiya, Koreya və s. ölkələrlə idxal-ixrac əməliyyatları nəticəsində formalaşır.

Respublikamız dünyada ən çox neft və qaz sektoru ilə tanındığından bu sahədəki ixracın da həcmi böyükdür. Məsələn, ilin ilk 6 ayında ixracın 86,81 faizini neft-qaz sektoru həyata keçirib. İxrac olunan məhsullar sırasında xam neft, təbii qaz, qaz halında maddələr, neft bitumu, neft koksu və digər neft məhsulları yer alır.

Qeyri-neft məhsulları ixracının isə 13,19 faiz olduğu qeyd edilir. Bunlardan ən çox faiz meyvə-tərəvəz, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi, alüminium və ondan hazırlanan məmulatlar, qara metallar və onlardan hazırlanan məmulatlar, elektrik enerjisi, şəkər, bitki və heyvan mənşəli piylər və yağlar, sement, alkoqollu və alkoqolsuz içkilər, çay, meşə fındığı, xurma və s. kimi malların payına düşür.

İxrac prosesində bitumlu suxurlardan alınmış xam neft və xam neft məhsullarının ixrac edildiyi ölkələrin ilk 5 pilləsində İtaliya, İspaniya, Hindistan, İsrail, Portuqaliya, təbii qaz və qaz halında olan maddələrin ilk beşliyində Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan yer alır. 6 ay müddətində qeyri-neft-qaz məhsulları ixrac etdiyimiz ölkələr sırasında öndəki 5 yeri Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan, ABŞ tutur.

Bəs idxal etdiyimiz əsas məhsullar hansılardır? 2021-ci ilin yanvar-iyun aylarının hesabatında ümumi idxal həcminin 25,55 faizinin maşın, mexanizm və elektrik avadanlıqları təşkil etdiyi qeyd olunur. İdxalın 16,87 faizini yeyinti məhsulları, 11,27 faizini nəqliyyat vasitələri və onların hissələri, qalanını əczaçılıq məhsulları, oduncaq və ondan hazırlanan məmulatlar, geyim və geyim üçün ləvazimatlar, tütün və tütün məmulatları, mebel və onun hissələri, buğda, çay, düyü və s. təşkil edir. İdxalda aparıcı ölkələr olaraq Rusiya, Türkiyə, Çin, Almaniya, ABŞ, Ukrayna, İtaliya, İran, Böyük Britaniya, Yaponiya və s. yer tutub. İdxalda xüsusi yer tutan avtomobillərin 6 aylıq statistik göstəriciləri 36741 ədəd minik avtomobili və digər mühərrikli nəqliyyat vasitəsindən, 60 ədəd avtobusdan ibarətdir.

Məlum olduğu kimi, idxal-ixrac prosesləri müxtəlif nəqliyyat vasitələri ilə həyata keçirilir. İdxalın əsas hissəsi avtomobil, eləcə də dəmir yolu, hava, dəniz nəqliyyatı ilə alınıb. İxracın isə əsas hissəsi boru kəmərləri və elektrik ötürücü xətlərlə, qalanı avtomobil, dəmir yolu, hava, dəniz nəqliyyatı ilə daşınıb.

Beləliklə, Azərbaycanda ixrac və idxal əməliyyatları iqtisadiyyata və beynəlxalq əməkdaşlığa birbaşa təsir göstərərək daha böyük inkişafa yol açır. Dünya ölkələri ilə qurduğu sıx əməkdaşlıq əlaqələri qlobal arenada vətənimizin nüfuzunu daha da artırır, onu daha sarsılmaz edir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

## Bu barədə düşünək

# «Adını mən verdim...»

## Yaxud övladına ad qoymaq hər kəsin təkcə şəxsi seçimi olmalıdırmı?

...Sinif otağı uşaqların qəhqəhəsi ilə doldu. Çünki Şahnaz müəllimənin sualına cavab vermək üçün dörd şagird birdən ayağa qalxdı. "Səhv"ini başa düşüb müəllimə də bir anlığa çaşdı. Axı Əliləri həmişə soyadı ilə çağırardı. Bu dəfə isə tələsmiş və sinfə üz tutub sadəcə: "Suala Əli cavab versin,"- demişdi. Nəticədə dörd Əli eyni vaxtda səslənmişdi...







Günümüzdə bənzər hadisələr çox olur. Çoxmərtəbəli evlərdən ibarət yeni yaşayış məhəlləsinin uşaqlar üçün əyləncə meydançasında bir ana qızını səslədi: "Nuray, bəsdir, az dəcəllik elə, gəl bura...." Daha bir Nuray öz anasına tərəf qaçıb dodaqlarını büzdü: "O xala nə deyir? Axı mən sakitcə oynayıram..." Üçüncü Nuray da sözün ona aid olduğunu güman edib hürkdü və elə yüyürdü ki, anasına pənah gətirincə yolda yıxıldı...

Bunlar dövrümüzün reallıqlarındandır. Bir-birinin adaşı olan uşaqların sayı getdikcə artır. Keçən il doğulan oğlan uşaqlarından 2008-nə Yusif, 1905-nə Əli, 1797-nə Hüseyn, 1932-nə Uğur, 1236-na Ömər adı verilib. Qızlara verilən adlar arasında üstünlüyü isə Zəhra (1968), Zeynəb (1580), Nuray (1241),Məryəm (1507), Aylin (1437) təşkil edib. Elə 2019-cu ildə də ən çox qoyulan bu adlar olub. Ümumiyyətlə, bu və daha bir neçə digər ad son illərdə rekordu əldən vermək istəmir. Belə ki, 2014-2018-ci illərdə qızlara ən çox verilən ad Zəhra olub. Bu müddətdə həmin ad 11 918 yeni doğulan qıza qoyulub. Sözügedən 5 il ərzində 12 507 oğlana Yusif adı verilib. İş o yerə çatıb ki, bir ara hətta uşaq bezlərinin reklamındakı uşağa da simvolik olaraq Yusif deyirdilər. Halbuki bu adın reklama ehtiyacı yoxdur... Yuxarıda qeyd olunan 5 ildə oğlan uşaqlarına Yusifdən sonra ən çox qoyulan adlar Əli (9087), Hüseyn (8921), Ömər (6696) və Məhəmməd (5861) olub.

Bunların hamısı gözəl adlardır. Gözəl olan həm də odur ki, bəzi adlarla öz soykökümüzə qayıdır, bəziləri ilə dinə-imana tapınırıq. Lakin burada bir məqamı da unutmamalıyıq. Övladına müqəddəs ad, məsələn, Məhəmməd adını verən valideyn gələcəkdə onun peyğəmbərimizə layiq bir insan olacağına əmindirmi? Bu mənada gənc ata-analar öz üzərlərinə böyük məsuliyyət götürdüklərini dərk etməlidirlər.

Eyni adların digərlərinə nisbətən çox olması hallarına əvvəlki vaxtlar da rast gəlinib. Hətta qohum-qonşular arasında adların təkrarı olub. Bundan çoxu inciməyib. "Ad bostandır,"- deyiblər. Lakin o cür ifratçılıq da olmayıb ki, eyni şəhərdə yaşayan orta yaslı iki qardaş və bir bacının hər birinin nəvəsinin adı Murad olsun.

Məgər Azərbaycan xalqı ad qıtlığımı yaşayır? Şükürlər olsun, dilimiz zəngin, müsbət ədəbi qəhrəmanlarımız çox, həyatda ibrət götürüləsi insanlarımız saysız-hesabsız, adı yaşamağa layiq olan igidlərimiz tarixin səhifələri qədər...



Hər kəsin övladına hansı adı verəcəyi onun öz şəxsi işi olduğu üçün bu mövzu bir qədər mübahisəlidir. Ətrafdakı insanlar bu məsələyə haqlı olaraq müdaxilə etmir, qanunun özü də övladına ad verən valideynə heç bir qadağa qoymur. Bununla belə, hər kəs uşağına adı qoyarkən "yüz dəfə ölçüb bir dəfə biçməlidir".

Yaşı 70-i ötmüş Əskinaz xanım maraqlı bir xatirə danışır: "1960-cı illərdə hər yay ailəliklə səfalı bir dağ kəndində istirahət edirdik. Qaldığımız yerin qonşuluğunda yaşayan Nərgiz xala ilə xoş ünsiyyətimiz yaranmışdı. O, tez-tez bizi yoluxur, eləcə də evinə, bağ-bağçasına dəvət edirdi. Növbəti yay o kəndə gələndə gördük ki, Nərgiz xalanın böyük ailəsi bir nəfər də artıb. Qucağındakı təxminən yarım yaşlı nəvəsinin adını soruşduq və cavabın zarafat, yaxud uşağın ayaması olduğunu düşündük. Amma eşitdiyimiz həqiqət idi - balaca oğlanın adını Qaqarin yazdırmışdılar".

O zaman Əskinaz xanım ötkəm xasiyyətli gənc bir qız imiş. Dost olduqları bu ailədən israrla və ərklə tələb edir ki, gecikmədən körpənin adını dəyişsinlər. Belə olan halda "Qaqarin"in atası gülümsəyib deyir: " Yaxşı, bacı, ona sən ad ver".

"Təklifim onların və bizim ailəmizin birgə müzakirəsindən sonra bəyənildi. Uşağın adını Arif qoyduq, - deyə Əskinaz xanım söhbətinə davam edir. - Biz sonralar da uzaqdan-uzağa olsa belə, həmin ailə ilə münasibət saxlayırdıq. Bu yaxınlarda isə bir qonaqlıqda Arifin özü ilə görüşdük. Adının necə qoyulmasının tarixçəsini valideynləri sağlıqlarında ona danışıblarmış. Buna görə də Arif mənə böyük minnətdarlıq etdi. Söylədi ki, adı ürəyincədir və həmişə ona layiq olmağa çalışır. Əvvəlki adı ilə ətrafdakı insanların və arvad-uşağının istehzalı gülüşünə səbəb olarmış".

Ağbirçəyimizin bu söhbətinin də məğzi məhz odur ki, adqoyma az əhəmiyyətli, sıradan bir məsələ deyil. Uşağa elə ad verilməlidir ki, gələcəkdə bu ona cəmiyyət arasında kompleks yaşatmasın. Bəlkə adın insanın taleyinə təsiri olduğunu söyləyənlərin, insanların öz adlarına bənzədiklərini deyənlərin də sözünü qəribliyə salmayaq?..

Doğrudur, indi uşaqlara qəribə, ağlabatmaz ad qoyan yoxdur. Amma yaxın keçmişdə, xüsusilə sovet hakimiyyətinin ilk illərində və onilliklərində övladlarına İliç, Engels, Marks, Komsomol, Proletar, hətta Kolxoz, Traktor, Kombayn, Film və digər bunlara bənzər ad qoyanlar olurdu. Həm bu adları uşaqlarına təkcə savadsız adamlar deyil, quruluşa sədaqətini nümayiş etdirmək istəyən partiya-sovet işçiləri də verirdilər. Bunlar keçmişdə qalıb və indi yumorla, gülüşlə xatırlanır.

Amma bir həqiqət də var ki, adqoyma məsələsində "dəb" yaratmaq sanki qanımıza-iliyimizə hopub. Bir zamanlar "Günay" mahnısından sonra Günayların sayı sürətlə artdı. Qonşuluqda yaşayan bir ailənin qızının və iki gəlininin adının Təranə olması da həmin illərin "dəb"indən gələn fəsaddır. Bu" dəb" məsələsinin davam etməsi proqnoz verir ki, yaxın gələcəkdə təkcə bir sinifdə, bir kiçik müəssisədə deyil, hətta bir ailədə bir neçə Aylin, Zəhra, Nuray, eləcə də Uğur, Əli, Yusif, Ömər və s. olacaq.

Nədənsə, "Əhməd haradadır?" filmi yada düşür. Yeri gəlmişkən, vaxtilə populyar olan bu ad indi az yada düşür. Statistika göstərir ki, 2014-2018-ci illərdə ölkəmizdə yeni doğulan oğlan uşaqlarına ən az qoyulan adlar Əkbər, Emin, Elmir, Fuad, Sübhan, Davud, Sənan, Fateh olub. Əslində, hər biri gözəl addır. Həmin illərdə Nərmin, Sevinc, Lalə, Ləman, Nigar, Aytac, Əsmər qız adları da çox yada düşməyib.

Deyilənləri son statistika da təsdiqləyir. Məsələn, bu ilin mart ayında doğumu qeydə alınmış oğlan uşaqlarına ən çox verilən adlar bunlardır: Əli, Yusif, Hüseyn, Elvin və Vüsal. Qızlara isə həmin ay ərzində verilən adlar arasında Günel, Aysel, Zəhra, Günay və Zeynəb üstünlük təşkil edib.

Gəlin, digər gözəl və mənalı adlarımızı da unutmayaq. Kütləvi informasiya vasitələri, şəhər və rayon qeydiyyat şöbələri bu istiqamətdə ardıcıl izahat və məlumatlandırma işi aparmalıdır. Adlardan və onların mənalarından ibarət kitabçalar buraxılmalıdır. Filoloq alimlərimiz öz sözlərini deməlidirlər.

Çalışmalıyıq ki, qızlarımıza ad seçəndə Saraxatun, Tomris, Nüşabə, Nigar, Həcər, Natəvan yaddan çıxmasın. Ən ülvi insani keyfiyyətlərə, incə qəlbə malik Azərbaycan qızına Zərifə adı çox yaraşır. Daxili və zahiri simasında bütün gözəllikləri birləşdirən qızlarımıza niyə Güldəstə deməyək? Bu və digər həmişə müasir olan, xoş səslənən, məna daşıyan onlarla ad gənc valideynlərə xatırladılmalıdır. Özümüzün gözəl adlarımız olduğu halda xarici adların həyatımıza daxil olması təzahürlərinə də yol verilməməlidir. Niyə qızımız Çiçək, Süsən, Lilpar, Nilufər, Lalə, Nərgiz, Yasəmən olmasın? Niyə onların Almaz, Zümrüd, Firuzə, Yaqut olmasını istəməyək? Qoy biri Nuray olanda rəfiqələri Ulduz, Ülkər, Zöhrə, Aygün, Aybəniz olsun.

Oğullarımız Cavanşir, Babək, Nəbi, Həzi, Polad, Mübariz adlarını daşısınlar. Qarabağı yağı caynağından alan igidlərimizin adlarını küçələrə, bulaqlara, məktəblərə deyil, dünyaya göz açan oğul övladlarımıza verək.

Adlarını biz verək, ömürlərini, talelərini Tanrı versin!..

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Cəmşid Naxçıvanski adına Hərbi Lisey - 50



# Qəhrəmanlar yetişdirən təhsil ocağı

**Cəmşid Naxçıvanski adına Hərbi Liseyin fəaliyyətə başlamasından yarım əsr ötür. Prezident İlham Əliyev qalib hərbçilər yetişdirən təhsil ocağının 50 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sənəddə qeyd olunur:**

"Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılmışdır. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərmiş, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynamışdır. Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr vermiş, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə yer almışlar. Onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır".

Qeyd edək ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun qərarı ilə 19 aprel 1971-ci ildə yaradılıb.

## Şücaəti ilə ad qazanan igidlər...

Hələ qədim zamanlardan oğlan uşaqlarına ox atmağı, qılınc tutmağı, at çapmağı öyrətməyə xüsusi əhəmiyyət verilirdi. "Oğlan düşmən çəpəridir" deyib ulularımız. Xalqımızın qəhrəmanlıq dastanlarından olan "Kitabi-Dədə Qorqud"dan öyrəndiklərimizdən biri də budur ki, qədimdə obanın, ulusun nəinki hörmətini, rəğbətini, hətta özünə ad qazanmaq üçün də oğlanlar mütləq şücaət göstərmişlər. Yalnız bundan sonra el yılığılır, ulusun ağsaqqalı Dədə Qorqud hünər göstərənə ad verirmiş. Beləcə, hər igid özünün ilk böyük cəsarətinin, şücaətinin dəyəri olan adla yaşayırmış.

Ancaq qız övladlarına da zəif məxluq kimi baxmayıblar. Azərbaycanlı qızlar, qadınlar atalarına, qardaşlarına, həyat yoldaşlarına, oğullarına arxa-dayaq olublar. Onlar, yeri gələndə, qılınca qurşanıb, at belinə qalxıb yağılara ağır zərbələr endiriblər.

## Dəyişən silahlar, dəyişməyən qəhrəmanlıq duyğuları...

Zaman keçdikcə yeni silahlar icad olunub. Hərb sənəti inkişaf edib və hər gün daha da inkişaf etməkdədir. İbtidai icma dövründə daşla, sapandla vuruşan bəşər övladları əsrlər ötdükcə oxla, qılıncla, tüfənglə, topla, tankla döyüşməyi öyrəniblər. Sonra hərbi silahları, necə deyərlər, yerdən göyə qaldırmağın yollarını da tapıblar. Helikopterlə, təyyarə ilə, son vaxtlar həm də dronlarla müharibə edirlər. Dəyişən zamanın dəyişməyən bir gerçəkliyi isə budur. Döyüşə vətən sevgisini bütün duyğularının önündə tutan, əli silahdan yapışanda titrəməyən, cəsur ürəkli, qorxmaz övladlar gedir. Və əlli ildir ki, Cəmşid Naxçıvanski adına hərbi təhsil ocağı belə qəhrəmanlar yetişdirir.

## Azərbaycanlıları hərb sahəsindən uzaq tutmaq siyasəti

Hərb sənətinə yiyələnməyin faydasını yaxşı bilən çar Rusiyası Orta Asiya və Qafqazın müsəlman xalqlarından orduda xidmətə aparmırdı. İstila etdiyi yerlərin əhalisinin hər zaman üzünə ağ ola, haqqını tələb edib ədalət istəyə biləcəyindən qorxduğu üçün çar hökuməti ehtiyatlı davranırdı. Həmin xalqların nümayəndələrindən kütləvi şəkildə hərbçi yetişdirməyi, müasir silahlarla davranmağı öyrətməyi məqsədəuyğun hesab etmirdi. Hökumətin başındakılar yad olduqlarından elə xalqın böyük əksəriyyəti də övladlarını hərbi xidmətə göndərməyə ürək etmirdi. Yalnız bəy, xan, mülkədar ailələri imperatora sədaqətlərini göstərmək üçün uşaqlarının hərbi xidmətdə olmalarına könüllü razılıq verirdilər. Odur ki, Azərbaycandan çar ordusunda xidmət edən hərbçilərin sayı az idi. Ancaq onların əksəriyyəti yüksək hərbi rütbələrə layiq görüldülər. Bununla sübut etdilər ki, azərbaycanlılar bütün dövrlərdə hərb sənətinin sirlərini öyrənməyə, qəhrəmanlıqlar göstərib ad qazanmağa qabildirlər.

1920-ci ildə sovet hakimiyyəti Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradaraq hakimiyyəti ələ keçirdikdən sonra da uzun illər vəziyyət dəyişmədi. Çarizmin bu sahədə tutduğu yolu bolşeviklər davam etdirdilər. Yalnız 1938-ci ildən sonra azərbaycanlıların ümumi hərbi xidmətə cəlb olunmasına başlanıldı. Amma yenə də ehtiyatı əldən vermir, onları, əsasən, xüsusi hərbi bilik və hazırlıq tələb etməyən hissələrə yollayırdılar.

İkinci Dünya müharibəsi illərində canlı qüvvəyə böyük ehtiyac yarandı. Sovet İttifaqının rəhbərliyi bütün müsəlman xalqları kimi azərbaycanlıların da ön cəbhəyə göndərilməsinə icazə verdi. 1941-1945-ci illərdə respublikamızdan 600 mindən çox oğlan və qız cəbhəyə getdi. Onlar döyüş meydanlarındakı şücaətləri ilə göstərdilər ki, bütün maneələrə baxmayaraq, Azərbaycan digər millətlərdən hərbi sahədə də geri qalmayıb. Amma müharibə başa çatdıqdan sonra xalqımız yenə ayrı-seçkiliyə məruz qaldı. Həqiqi hərbi xidmətə yollanan həmyerlilərimiz nizami hərbi hissələrə deyil, əsasən, təminat və təchizat bölmələrinə təyin olunurdular. Sərhədlərimizi qorumağı isə sovet hökuməti uzun illər özümüzə etibar etmədi...

## Bakıda ilk hərbi məktəb

SSRİ-də 1971-ci ildə hərbi təmayüllü iki internat məktəbi fəaliyyət göstərirdi. Onlardan biri Naximov, digəri isə Suvorov adına Hərbi Təmayüllü məktəblər idi. Tədrisin rus dilində aparılması və məktəblərin respublikamıza uzaq olması azərbaycanlıların orada təhsil almasına əngəl yaradırdı.

Azərbaycan Maarif Nazirliyi və respublika Hərbi Komissarlığı Azərbaycan KP MK Bürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün həmin ilin 16 iyununda müraciət hazırladı. Müraciət dərhal müzakirə edildi. 1971-ci il 20 iyulda "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK Bürosu tərəfindən qərar qəbul olundu. 1971-ci ilin noyabrında keçirilən məktəbin təntənəli açılış mərasimində Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev iştirak etdi. O söylədi ki, yeni məktəbə diviziya komandiri general Cəmşid Naxçıvanskinin adı verilir.

Beləliklə, 1971-ci ildə Heydər Əliyevin təşşəbüsü ilə Bakıda ilk hərbi məktəb fəaliyyətə başladı. Bakı şəhərindəki 2 saylı 8 illik İnternat məktəbinin bazasında yaradılan hərbi məktəb o vaxtdan hərbçi kadrların hazırlanmasında mühüm işlər gördü. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasının qoyulması gənclərimizdə hərbi vətənpərvərlik tərbiyəsinin düzgün təşkilinə, hərb işinə marağın artmasına təkan verdi.

Fəaliyyətinin ilk illərində dəfələrlə SSRİ Maarif Nazirliyi tərəfindən bu məktəbdə yoxlamalar aparıb təhsilin təşkili ilə yaxından tanış oldular. Hərbi məktəb dönə-dönə nazirliyin fəxri fərmanları ilə təltif edildi. İdman yarışlarında da ən yüksək pillələrə nail oldular. Beləliklə, respublika rəhbərliyinin qayğısı nəticəsində 1970-ci illərdən Cəmşid Naxçıvanski adına Məktəb SSRİ miqyasında uğurla fəaliyyət göstərən təhsil ocaqlarından birinə çevrildi.

1997-ci il noyabrın 24-də Heydər Əliyevin sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırıldı.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli Sərəncamı və müdafiə nazirinin 9 aprel 1998-ci il tarixli əmri ilə həmin il Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açıldı. Ölkə rəhbərinin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv olundu. Onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Hər iki təhsil ocağı - Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına lisey dövlət təminatında olan internat tipli tam orta təhsil müəssisəsidir. Liseylərə sentyabr ayının 1-nə 14 yaşı tamam olan və 16 yaşına çatmayan 8-ci sinfi bitirən şagirdlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında test imtahanlarını verməklə daxil olurlar. Hərbi liseydə təhsil müddəti 3 ildir. Həmin müddətdə müdavimlərə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi tədris planına əsasən, 21 fənn tədris edilir. Burada kursantlar ümumtəhsil fənlərini öyrənməklə yanaşı, hərbi hazırlıq və idman dərslərində imkanlarını inkişaf etdirirlər.

Bu gün liseydə vətənpərvər gənclərin hərb sənətini öyrənmələri üçün hər cür imkan yaradılıb. Tədrisin təşkilində zabit və müəllim heyəti iştirak edir. Liseydə yüksək tələblərə cavab verən maddi-texniki bazanın yaradılması tədris prosesinin keyfiyyətini yüksəldir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hərbi təhsil ocağının minlərlə məzunu ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunmasında iştirak etdi. Onlar Qarabağ müharibəsində böyük rəşadət göstərdilər. Liseyin məzunlarından 100 nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif edildi. 8 nəfəri Azərbaycan Respublikasının Milli Qəhrəmanı fəxri adına layiq görüldü.

Azərbaycan gənci vətənpərvər ruhda böyüyüb tərbiyə alır. Onların arasında hərbi biliklərə də yiyələnmək istəyənlərin sayı ildən-ilə artır. Belə bir zamanda general Cəmşid Naxçıvanskinin adını daşıyan bir məktəbdə oxumaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Çünki gedəcəkləri yol, görəcəkləri işlər müqəddəs amala xidmət edir. Çünki onlar Vətənimiz Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində dayanırlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Tarix yazan oğullar

# "Məni Vətən eşqi həyata qaytardı!.."

## Qazimizin ömründən səhifələr...

**Haqqında söhbət açacağım bu gənc Qasımzadə Namiq Ağa oğlu xan Arazla Oxçu çayının qovuşduğu yerin sağ sahilində - dağların sinəsində yerləşən Zəngilanın Turabad kəndində 1992-ci ilin 6 oktyabrında dünyaya göz açıb.**






Zəngilan rayonu erməni təcavüzkarları tərəfindən işğala məruz qalanda Namiqin 1 yaşı yenicə tamam olmuşdu. Həmin vaxt valideynləri məcburi köçkün kimi Sabirabad rayonunun Şəhriyar kəndində məskunlaşmışdılar. Namiq 1998-2009-cu illərdə həmin kənddə fəaliyyət göstərən 25 saylı Zəngilan rayon tam orta məktəbini bitirmişdir. Elə həmin ili Şirvan şəhərindəki İqtisadiyyat və Humanitar Kollecə daxil olmuşdur.

2010-cu ilin 11 oktyabrında hərbi xidmətə çağırılıb. 2012-ci ilin aprelinədək Tovuz rayonundakı "N" saylı hərbi hissədə qulluq edib. Ordudan tərxis olunduqdan sonra Namiq qiyabi yolla təhsil aldığı kollecə qayıdır və oranı 2014-cü ildə bitirir. Oxumaq, təhsil almaq həmişə onun arzusu olub. Çünki ailədə həmişə elmə, təhsilə böyük maraq və həvəs göstərilib.

Namiq evin tək oğlu olmasına baxmayaraq, qəlbi həmişə Vətən eşqi ilə döyünürdü... Elə onu da könüllü cəbhəyə bağlayan bu sevgi idi. Odur ki, 2017-ci ilin 7 fevralından müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu - MAXE kimi Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirir. Ancaq ali təhsil almaq həvəsi onu rahat buraxmır. 2018-ci ilin iyul ayında imtahan verərək qiyabi yolla Avrasiya Universitetinin Filologiya fakültəsinə daxil olur... 2018-ci ilin oktyabr ayında hərbi xidmətini davam etdirmək üçün Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilir.

## Döyüş mənim alnıma yazılmışdı...

Vətənpərvərlik ailədən başlayır. Namiqin atası da gərgin bir döyüş yolu keçib. Əmisi də zabit olub. Hərbi estafet ailədən qaynaqlandığından Namiq də bu yolu üstün tutub, müqəddəs bilib... Elə məhz buna görə də Namiq Qasımzadə İkinci Qarabağ müharibəsi başlanan zaman - 2020-ci ilin 27 sentyabrında cəbhənin ən qaynar, qızğın döyüş gedən bölgəsinə göndərilir... 44 günlük tarixi Zəfər yürüşündə onun uğurlarını, göstərdiyi igidlikləri saymaqla bitib tükənən deyil...

Peşəkar hərbçi və döyüşçü kimi o, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Hadrut istiqamətlərində gedən döyüşlərdə igidlik göstərib... Yorulmaq nə olduğunu bilməyən Namiq Qasımzadə gecəni gündüzə qataraq komandanlığın tapşırıqlarını uğurla yerinə yetirən və öndə gedən mətin döyüşçülərdən olub...

Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi ərazisində hərəkətdə olduqları yük maşını ilə eyni anda 2 tank və 1 piyada əleyhinə minaya düşərək ağır yaralanır...

## Özünün söhbətləri...

- Füzuli rayonunun Seyid Əbdürrəhmanlı və Kürdlər kəndi istiqamətində düşmənin mövqelərini yarıb arxada olan bölmələrimizə döyüş ləvazimatlarını və sursatları çatdırmalı idik. Sonuncu düşmən siperini də dəf edib 300-400 metr keçən tək hərəkətdə olduğumuz hərbi maşın minaya tuş gəlir. Sən demə, mənfurlar bütün yolu minalayıbmışlar. İlk partlayışda nə olduğunu anlamağa çalışırdım ki, ikinci partlayışla havaya atıldım. Ən ağır yaranı burada aldım. Ayaqlarım, qollarım, boynum müxtəlif yerlərdən sınmışdı. Üzümdə, gözümdə sağ-salamat yer qalmamışdı. Bütün bunlara baxmayaraq, özümü itirmədim. Bilirdim ki, döyüş alnımıza yazılıb. Bu, müharbədir. Hər bir riski göz önünə almışdım. Bədənimə daxil olan saysız-hesabsız qəlpələri qorxmadan əl atıb çıxardıb atırdım. Ancaq onurğa sütunum sındığından düşmən mövqeyindən yayınmaq üçün dirsəklərimlə hərəkət edirdim. Gözümün qarşısında döyüş dostlarımdan birinin ayağı yerindən qopub düşmüşdü... "Olumla ölüm" arasında qalsaq da, yenə də ağrıların azalacağını gözləyirdim... Bir sözlə, 16-17 saat döyüş meydanında köməksiz qaldıq. Gecədən xeyli keçmiş səhərə yaxın hərbçi yoldaşlarımız xəbər tutaraq bizi düşmən mühasirəsindən çıxarmağa nail oldular...

Namiq Qasımzadə döyüş səhnələrini danışdıqca onun qəlbində olan Vətən sevgisinin böyüklüyünü hiss edirdim... Nə qədər ağrılı-acılı, hətta yarımcan olasan belə döyüş tapşırıqlarını yerinə yetirmək əsl qəhrəmanlıq və şücaət tələb edir. Bunun üçün dözüm, iradə gərəkdir!..

Düşmənə endirdiyi sarsıdıcı zərbələr, odun-alovun içindən mərdliklə çıxması, təpərli və hünərli danışması Namiqin məğrurluğundan, qorxmazlığından xəbər verir.

Namiq 44 günlük Vətən müharibəsinin qəhrəman iştirakçısı olaraq Prezdentin sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib. O, Azərbaycan Vətən Müharibəsi İctimai Birliyinin fəxri fərmanı, Azərbaycan Respublikası Beynəlmiləlçi Əlil Döyüşçülər Fondunun fəxri fərmanı ilə də mükafatlandırılıb.

## Xəstəxana həyatı...

Namiq Qasımzadə danışır ki, ilkin yardımda bilindi ki, hər iki ayağımdan baldır və bud hissəm, həmçinin sağ pəncəm, daban sümüklərim, bel sümüyüm həm sınıb, həm də ciddi qəlpə zədələri alıb. Bir gözümün görmə qabiliyyətini isə tamam itirmişəm...

İndi müalicə alıram. Həkimlər mənə tam nəzarət edirlər. Ağ xalatlıların mənə yaxından qayğı və diqqət göstərmələri səhhətimdə dönüş yaradır. Sağlam bədəndə sağlam ruh olar, - deyiblər... Həkim personalından o qədər razıyam ki, yaralanmağımı da unuduram. Onlara çox inanıram, sağalmağıma gümanım çoxdur. Ümidim var ki, gözlərim də görəcək, yenə ayaqlarım yer tutacaq və mən yenidən Milli Ordunun tərkibinə qatılacağam... Təki Vətən sağ olsun, - deyirəm. Vətən elə mənim görən gözümdür...

Namiq bu sözləri deyəndə doluxsundum, qəhər məni boğdu...

Namiq ara vermədən danışırdı... Elə danışırdı ki, sanki səngərdə idi, hələ də döyüşür...

"Keçdiyim döyuş yolu, taleyim nə qədər ağır olsa da, yenə də mənə Vətən şirindir! Sizdən nə gizlədim, məni Vətən eşqi həyata qaytardı", - deyən Namiq Qasımzadənin mübarizlik ruhuna heyran qaldım.

Allah qazimizi sağlığına qovuşdursun.

***Səbirə ƏLƏKBƏROVA,***
***Zəngilan rayonu***

● Vətənpərvərlər

# Doğma yurda canlarını qurban edənlər

## Qazi Nihat Aydın oğlu Əfəndi şəxsi əşyalarının muzey eksponatına çevrilməsini istəyib

**2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdıqdan sonra məlum oldu ki, bu tarixi zəfəri yazanlar yalnız torpaq uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanlar deyil, həm də ya əlini, qolunu, ya da ayağını, gözlərini itirən qazilərimzdir.**

Belə igid, qorxmaz Vətən oğullarından biri də Vətən müharibəsi iştirakçısı, qazi Nihat Əfəndidir.

Bu günlərdə AMEA Milli Azərbaycan Tarix Muzeyində görüşü təşkil edilən Nihat Əfəndi "Anadır arzulara hər zaman Qarabağ!" və "Azərbaycan Atabəylər dövləti" sərgiləri ilə tanış olaraq, şəxsi əşyalarını (fotoları, tərcümeyi-halı, onu yaralamış güllə başlığını) muzeyin Vətən Müharibəsi Fonduna təhvil verib.

Nihat Aydın oğlu Əfəndi 19 iyul 1999-cu ildə Sumqayıt şəhərində dünyaya göz açıb. O, 2005-2014-cü illərdə Sumqayıtdakı 29 saylı orta məktəbdə oxuyub. Burada IX sinfi bitirdikdən sonra 2016-cı ildə Bakı şəhərindəki 2 saylı Peşə Liseyini videooperator ixtisası üzrə başa vurub.

2017-ci ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılan Nihat Əfəndi Ağdam rayonundakı "N" saylı hərbi hissədə xidmət edib. 2019-cu ilin yanvar ayında ordu sıralarından tərxis olunub.

Qazinin şəxsi əşyalarının fonda təhvil verilməsində vasitəçi olan muzeyin əməkdaşı Aygün Məmmədova deyir ki, Nihat hələ məktəbli yaşlarından səkkiz il Sumqayıt şəhərindəki "Alüminium" idman zalında sərbəst güləş üzrə məşğul olub: "...2020-ci ildə Vətən müharibəsinin başlaması ilə əlaqədar səfərbərliyə cəlb edilən Nihat könüllü olaraq ön cəbhəyə göndərilib. Ötən il sentyabrın 21-də əvvəlcə Qusar rayonundakı "N" saylı hərbi hissəyə, 27 sentyabrdan isə Qarabağ ərazisinə göndərilib. Füzuli, Cəbrayıl və Xocavənd ərazisindəki döyüşlərdə iştirak edən Nihat Əfəndi 2020-ci il oktyabrın 13-də Hadrutun azad edilməsi əməliyyatında düşmənin artilleriya atəşi nəticəsində sol gözündən və sağ ayağından yaralanıb..."

2020-ci il noyabrın 3-dən o, yenidən hərbi əməliyyatlara cəlb edilib. Ötən ilin son günlərində, daha dəqiq desək, dekabrın 30-da ordu sıralarından tərxis olunan Nihat Aydın oğlu Əfəndi "Vətən müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri fərmana və "Füzulinin azad olunmasına görə" medalına layiq görülüb.



***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● "Dəmir yumruq" öz yerindədir

# Fitnəkarlıq çox çəkməz

## Ermənilər son şanslarını da itirə bilərlər

İyul ayının 23-də Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonu ərazisindən Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqeləri atəşə tutması nəticədə bir hərbi qulluqçumuzun - gizir Telman Yaqublunun şəhid olması xəbəri bütün xalqmız kimi, məndə də dərin hiddətə səbəb oldu.

Təxribatın işğaldan azad etdiyimiz ərazidə baş verməsi ermənilərin təmas xəttində süni gərginlik yaratmaq kimi çirkin niyyətindən xəbər verir. Öz ölkəsinin daxilində bütün dayaqlarını itirən Ermənistan hakimiyyətinin cəbhədə təxribatlar yaratmaqla xalqın qəzəbindən yayınmağa çalışması yeni taktika deyil. Bununla belə, Azərbaycanın Silahlı Qüvvələrinin qəhrəman əsgərləri cəbhə xəttində erməni tərəfinin törətdiyi hər bir təxribata həmişə layiqincə cavab verib, ağır zərbələrlə düşməni yerində oturdub. Şəhidimizin qisası qısa zamanda alındı: düşmən tərəfi yenə də törətdiyi təxribatlara görə layiqli cavabını aldı.

Hələ də mənfur düşmənlərimiz tərəfindən Zəngəzur dəhlizinin açılmasına maneçilik törədilir. Əslində, Ermənistanın belə "ərköyün" davranışlarına rəvac verən bəzi qüvvələrin ikili standartlara əsaslanan siyasətidir. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 22-də AzTV-yə müsahibəsində deyib: "...Bəli, Ermənistanın məyusluğu davam edəcək. Çünki görünür ki, onlar hələ də müharibədən tam nəticə çıxarmayıblar. Çünki onların bəzi yersiz bəyanatları, addımları onu göstərir ki, onlar hələ nəticə çıxarmalıdırlar. İkinci Qarabağ müharibəsini unutmamalıdırlar. Şarl Mişel İrəvanda olarkən sərhəd ərazilərini mübahisəli ərazilər adlandırdı. Sözün düzü, mən də bu ifadə ilə razı deyiləm. Çünki biz hesab edirik ki, bu, bizim ərazilərdir. Mən hesab edirəm ki, bu, Zəngəzur ərazisidir. Zəngəzur isə bizim dədə-baba torpağımızdır və biz öz ərazimizdəyik..."

Azərbaycan xalqı əmindir ki, dövlət başçısı İlham Əliyevin Rusiyaya səfəri Zəngəzur dəhlizinin həllinə müəyyən təkan verəcək. Siyasi analitiklər də hesab edirlər ki, Azərbaycan diplomatiyası Prezidentin rəhbərliyi ilə bu uğura da imza atacaq.

Bu əminlik bir də ondan qaynaqlanır ki, Prezident İlham Əliyev dünyaya mesaj verərək bildirdi: "...Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. İstəməsə, zorla həll edəcəyik..."

Bəli, Azərbaycan bir müstəqil dövlət kimi bu gün çox güclüdür! Azərbaycan xalqı Xilaskar Liderinin ətrafında sıx birləşərək Ermənistanın 30 illik işğalına son qoydu! Azərbaycan dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünün varlığını təsdiqlədi!

***Aygül BAĞIROVA,***
***YAP Gənclər Birliyinin fəalı***




XXXII Tokio Yay Olimpiya Oyunları

## Güləşçilərimiz medal həsrətimizə son qoyacaqlarmı?

Olimpiadada Azərbaycanı təmsil edəcək güləşçilərimiz artıq Yaponiyadadırlar. Sərbəst güləş üzrə millimizin tərkibində baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq) və Şərif Şərifov (97 kq) yer alıblar.

Baş məşqçi Aslan Ağayevin rəhbərliyi altında Mariya Stadnik (50 kq) və Elis Manolova (68 kq) "Tokio-2020"də qadın güləşçilər arasında uğur qazanmağa çalışacaq. Yunan-Roma güləşi üzrə yarışda isə baş məşqçi Aleksandr Tarakanov və böyük məşqçi Rövşən Bayramovun nəzarəti altında Rafiq Hüseynov (77 kq) və İslam Abbasov (87 kq) mübarizə aparacaq.

Xatırladaq ki, I-S kateqoriyalı hakim Asif Şirəliyev Olimpiya Oyunlarında ədaləti qoruyacaq referilərin arasında yer alacaq. Olimpiadada güləş yarışları avqustun 1-7-də keçiriləcək.





## Cüdoda uğursuzluq davam edir

Azərbaycan yığmasının daha bir cüdoçusu Olimpiya Oyunlarında çıxışını yekunlaşdırıb. 90 kq çəki dərəcəsində mübarizə aparan Məmmədəli Mehdiyevin ilk dueli 1/16 finalda Qazaxıstan təmsilçisi İslam Bozbayevə qarşı olub.

Rəqibinə vazari ilə qalib gələn təmsilçimiz növbəti mərhələdə özü məğlub olub. O, 1/8 finalda Mixail İqolnikovla (Rusiya) dueldə uduzub. Rəqib vazari ilə qalib gələrək yoluna davam edib. Mehdiyev isə Olimpiada ilə vidalaşıb.

Qeyd edək ki, Tokio-2020-də 9 cüdoçu ilə təmsil olunan Azərbaycan yığmasının heyətində bundan əvvəl Kəramət Hüseynov (60 kq), Aişə Qurbanlı (48 kq), Orxan Səfərov (66 kq), Rüstəm Orucov (73 kq) və Murad Fətiyev (81 kq) yarışı medalsız başa vurublar.

## Üzgüçülükdə Olimpiya rekordu təzələnib

Tokio Olimpiadasında 200 metr məsafəyə batterflay üsulu ilə üzmə yarışında yeni Olimpiya rekordu müəyyənləşib. Macarıstan üzgüçüsü Kriştof Milak yarışı 1 dəqiqə 51,25 saniyəyə başa vuraraq çempion adını qazanmaqla yanaşı, yeni Olimpiya rekordunun da sahibi olub.

21 yaşlı idmançı bu göstərici ilə Olimpiya Oyunları tarixində ən titullu atlet olan amerikalı Maykl Felpsin rekordunu (1 dəqiqə 52,03 saniyə) yeniləyib. M.Felps bu rekorda "Pekin-2008"də imza atmışdı.

Qeyd edək ki, macar idmançı 200 metr məsafəyə batterflay üsulu ilə üzmə yarışında dünya rekordunun (1 dəqiqə 50,73 saniyə) da sahibidir. Bu yarışda yaponiyalı Tomoru Honda gümüş, italiyalı Federiko Burdisso isə bürünc medallara sahib olublar.





## Azərbaycan badmintonçusu ikinci görüşündə məğlub olub

Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Tokio Yay Olimpiya Oyunlarında ikinci görüşünə çıxıb. Kişi badmintonçuların şəxsi yarışında yeganə təmsilçimiz "L" qrupunda ikinci görüşündə danimarkalı Anders Antonsenlə üz-üzə gəlib. Təmsilçimiz rəqibinə 0:2 hesabı ilə uduzub.

Qeyd edək ki, E.R.Dviçayo birinci görüşdə vyetnamlı Tien Minh Nguyeni 2:0 hesabı ilə məğlub edib. Həmçinin danimarkalı A.Antonsendə ilk görüşündə T.M.Nguyeni 2:0 hesabı ilə üstələyib.

Turnirin reqlamentinə əsasən, 14 qrupda ilk sırada yer alacaq badmintonçular və iki ən yaxşı ikinci pillənin sahibi səkkizdəbir final mərhələsinə vəsiqə qazanacaq.

## Dördqat Olimpiya çempionu yarışdan uzaqlaşdı

İdman gimnastikası üzrə dördqat olimpiya çempionu Simona Beyls "Tokio-2020"də fərdi çoxnövçülük yarışlarında iştirak etməyəcək. Buna idmançının psixoloji problemləri səbəb olub.

ABŞ millisinin üzvü komanda yarışlarını da yarımçıq dayandırdıqdan sonra belə qərar verib. O, dayaqla tullanmadan sonra çıxışını başa vurub. Tibbi müayinədən sonra qərara alınıb ki, fərdi çoxnövçülükdə onu Keri Ceyd əvəz edəcək.





## İspaniyalı tennisçini gün vurdu

Tokio Olimpiadasında daha bir xoşagəlməz hadisə yaşanıb. İspaniyalı tennisçi Paula Badosa qarşılaşmasını yarımçıq dayandırıb.

Xanım idmançının 1/4 finalı başa vura bilməməsinə günvurma səbəb olub. İlk setdə çexiyalı Marketa Vondrouşovaya 3:6 hesabı ilə uduzan ispaniyalı mübarizəni davam etdirə bilməyib.

## "AZAL" IATA Travel Pass tətbiqini ən çox tələbat olan istiqamətlərdə sınaqdan keçirməyə başlayır

Qurumun Mətbuat xidmətinin məlumatına görə, cari ilin avqust ayında Azərbaycanın milli aviadaşıyıcısı daha çox tələbat olan reyslərində IATA Travel Pass tətbiqini sınaqdan keçirəcəkdir.

IATA Travel Pass tətbiqi - smartfonlarda quraşdırılmış və koronavirus infeksiyası üçün test nəticələri, habelə gələcəkdə peyvəndləmə barədə məlumatlar da daxil olmaqla, sərnişinin sağlamlığı haqqında uçuş üçün lazım olan bütün məlumatları ehtiva edən bir növ rəqəmsal səyahət sənədidir. Tətbiq sayəsində uçuşqabağı rəsmiyyətlər daha az vaxt aparacaqdır.

IATA Travel Pass tətbiqini ilk olaraq aşağıdakı reyslərin sərnişinləri sınaqdan keçirə biləcəklər:

- AZAL - Bakı-İstanbul-Bakı (GYD-IST-GYD)
- AZAL - Bakı-Moskva-Bakı (GYD-DME-GYD)
- Buta Airways - Bakı-İstanbul-Bakı (GYD-SAW-GYD)
- Buta Airways - Bakı-Jukovski-Bakı (GYD-ZIA-GYD)

Qeyd edilən reyslərdə sınaq müvəffəqiyyətlə keçdiyi təqdirdə, gələcəkdə aviaşirkət bu proqramın daimi əsasda tətbiqini nəzərdən keçirəcəkdir.



Tətbiqin xidmətləri Azərbaycandan bu reyslərlə uçan bütün sərnişinlər və ölkəyə gələn Azərbaycan vətəndaşları üçün mümkün olacaqdır.

IATA Travel Pass tətbiqi vasitəsilə rəqəmsal pasportu təqdim edən sərnişinlərə qeydiyyat masasında prioritet qaydada xidmət göstəriləcək, habelə onlar Heydər Əliyev Beynəlxalq Aeroportunda sərhəd nəzarətindən prioritet qaydada keçid xidmətlərindən (Fast Track) istifadə edə biləcəklər.

IATA Travel Pass tətbiqindən istifadəyə görə bonus olaraq, AZAL və Buta Airways reyslərində tətbiqin sınaqdan keçirilməsində iştirak edən AZAL Miles bonus proqramının hər bir iştirakçısına əlavə 250 bonus mili hesablanacaq.

Cari ilin may ayında AZAL və IATA Azərbaycanda IATA Travel Pass tətbiqinin istifadə imkanlarını müzakirə etmişdilər. Mobil əlavənin tətbiqi sərhədlərin təhlükəsiz açılmasına və aviasiya sərnişin axınının COVID-19 pandemiyasınadək mövcud olan göstəricilərə qədər bərpasına kömək edəcəkdir.

### "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhəri, Yasamal rayonu 99 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmirinə dair layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, N.Rəfiyev küçəsi, 17 nömrəli ünvana müraciət edə bilərlər (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon-0124965205).

İddiaçılar imzalanıb möhürlənmiş zərfdə kotirovka təklifini 10 avqust 2021-ci il saat 18:00-dan gec olmayaraq yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır. Kotirovka təklifləri Bakı şəhəri, N.Rəfiyev küçəsi, 17 nömrəli ünvanda 11 avqust 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Peyvənd olunmaqla dünyanı bu bəladan xilas edə bilərik

### Bu, həm də pandemiya dinamikasının diktə etdiyi reallıqdır

***Əvvəli 1-ci səh.***

Yoluxanların sayına görə ikinci yeri Hindistan tutur. Bu ölkədə indiyə qədər 29 milyon 183 min nəfərdə COVID-19 xəstəliyi təsdiqlənib, 359 min 695 nəfər vəfat edib, sağalanların sayı 27 milyon 655 min nəfərdir. Yoluxma sayına görə üçüncü pillədə Braziliya dayanır. Cənubi Amerika ölkəsində pandemiya dövrü ərzində 17 milyon 125 min nəfər virusa yoluxub, onlardan 479 min 791 nəfəri ölüb, 15 milyon 596 min nəfəri sağalıb.

#### Ölüm sayına görə Azərbaycan Avropadan, ümumilikdə isə dünyadan geri qalır

Dünya səhiyyəsi pandemiya ilə mübarizənin yollarının yalnız peyvəndlənmədən keçməsinin üzərində dayanıb. Avropa İttifaqı ölkələrinin təxminən 100 milyon sakini koronavirus əleyhinə tam vaksinasiya olunub. Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen keçirdiyi mətbuat konfransında məlumat verib.

Ölkəmizdə bu sahədə vəziyyət digər ölkələrlə müqayisədə təhlükəli deyil. Verilən qərarlar, görülən tədbirlər sayəsində yoluxma və ölüm sayına görə Azərbaycan əksər Avropa ölkələrindən və ümumilikdə dünyadan geri qalır. Bununla belə, arxayınlaşmaq olmaz. Virus hələ bitməyib. Dünyanı bürüyən növbəti dalğa ölkəmizə də gəlib çıxıb. Yoluxma sayı yüksələn xətlə gedir. Amma pandemiyanın ilk günlərindən fərqli olaraq insanlar vəziyyəti düzgün dəyərləndirib nəticə çıxartmağı bacarırlar.

İndiyədək ölkədə ümumilikdə 341183 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 332259 nəfər müalicə olunub sağalıb, 5011 nəfər vəfat edib, hazırda 3913 nəfər aktiv xəstə var.

Vaksinasiya isə öz qaydasında aparılır. Onu da deyək ki, vaksinasiya Azərbaycanda yanvar ayından başlanıb və bu günə qədər ciddi əks göstəriş faktı qeydə alınmayıb.

Ölkədə virusla bağlı son xəbərlər qorxulu olmasa da, qənaətbəxş də deyil. Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 26-da təşkil etdiyi brifinqdə qapanmaların deyil, bağlı müəssisələrin də açılması üçün müzakirələrin getdiyi qeyd edildi. Prezidentin köməkçisi, Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, növbəti mərhələlərdə teatr və kinoteatrların açılması müzakirə olunur. Bu sahənin fəaliyyətinə icazə veriləcəyi təqdirdə, giriş üçün COVID-19 pasportu mütləq şəkildə tələb ediləcək. Hazırda Azərbaycanın quru sərhədlərinin açılması nəzərdə tutulmur. Lakin epidemioloji vəziyyət pisləşsə, qapanmaya getməyə məcbur olacağıq.

#### Ölkəmizdə əhaliyə 4 milyon yarım doza peyvənd vurulub və bu peyvəndlər tam təhlükəsizdir

Yenidən qapanmalara və sərt tədbirlərə ehtiyac olmaması üçün ölkədə peyvənd olunanların sayı əhalinin heç olmasa 80 faizini təşkil etməlidir. Bu göstərici ölkədə kollektiv immunitetin formalaşmasına gətirib çıxaracaq və pandemiya bəlasından xilas olacağıq. Azərbaycan vaksinləri əldə edən və əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasındadır. Yenə də əhalidən yalnız qoyulan qaydalara riayət etməklə, virusun hələ ölmədiyini nəzərə almaqla peyvənd olunmaq rica edilir ki, bu da insanların sağlamlığına hesablanıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, 2021-ci il 1 sentyabr tarixindən etibarən COVID-19 pasportu olmadan idarə, müəssisə, ictimai nəqliyyat, şadlıq və əyləncə mərkəzlərinə getmək, bir sözlə həyata davam etmək mümkün olmayacaq. Bu da yalnız insanların sağlamlığına və tezliklə normal həyata qayıtmalarına xidmət edən qərardır.

Ölkəmizdə 4 milyon yarım doza peyvənd vurulub və bu peyvəndlər tam təhlükəsizdir. Azərbaycanda vaksinasiyaya başlandığı gündən vəfat edənlərin 99 faizi peyvənd olunmamış insanlardı. Bunun özü də peyvəndə getmək üçün əsaslı səbəbdir, yəni peyvənd olunaraq virusdan, dolayısı ilə ölümdən xilas olmağın mümkünlüyünə inam yaradır. İnsanların, dünyanın pandemiyadan çıxış yolu yalnız vaksinasiyadır. Bu artıq pandemiya dinamikasının diktə etdiyi reallıqdır. Heç bir tərəddüd etmədən, ölkəmizdə 2 milyon insanın etdiyini edib peyvənd olunmaqla virusdan xilas olub normal, xoşbəxt həyata qayıda bilərik. Peyvənd olunmaqla həm özümüzü, həm də dünyanı pandemiyadan xilas etmiş olarıq.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## BMT: bəşəriyyət Yer üçün təhlükəli olan asteroidlərin 60 faizindən xəbərsizdir



Bəşəriyyətə Yer orbiti ilə kəsişən iri asteroidlərin və kometlərin təxminən 40 faizi məlumdır. Məlum obyektlərin sayı təqribən 25 mindir. Bu barədə BMT-nin kosmik fəzanın dinc məqsədlərlə istifadəsi üzrə komitəsinin elmi-texniki alt komitəsi məlumat verir.

Hesabatda bildirilir ki, ötən il ərzində astronomiya rəsədxanalarının ümumdünya şəbəkəsi asteroidlərin və kometlərin müşahidəsi barədə təxminən 39,5 milyon yazı toplamışdır.

Bu il aprelin 17-nə olan məlumata görə, alimlərin Yer üçün potensial təhlükə yarada biləcək 25647 obyekt barədə bilgisi var idi. 2020-ci il ərzində rekord sayda (2959) bu cür yeni obyektlərin sayı müəyyənləşdirilmişdir.

## Ərəb koalisiyası hövsilərin 4 raketini və 2 pilotsuz təyyarəsini vurub



Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası hövsilərin atdığı 4 ballistik raketi və 2 minalanmış pilotsuz uçuş aparatını məhv edib. Bu barədə SPA rəsmi agentliyi xəbər verir.

Hövsilər bu bəyanatı hələ ki şərh etməmişlər.

Xatırladaq ki, Yəməndə 2014-cü ildən davam edən silahlı münaqişə səbəbindən 3 milyona yaxın sakin məcburi köçkün olmuşdur.

Ərəb koalisiyası 2015-ci ilin martından hövsilərlə mübarizədə Yəmən hökumətinə dəstək verir.

## Suriyanın şimalında daha 3 terrorçu zərərsizləşdirildi



Suriyanın şimalında keçirilən "Fərat qalxanı" əməliyyatı zonasında PKK terrorçu təşkilatının bu ölkədəki qanadı - YPG-nin daha 3 üzvü zərərsizləşdirilmişdir. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən xəbər verilir. Məlumata əsasən, Türkiyə Silahlı Qüvvələri bölmələri Suriyada zirehli maşının atəşə tutulması nəticəsində 2 hərbi qulluqçunun ölümünə cavab olaraq əməliyyatları davam etdirir. Son günlər Suriya ərazisində məhv edilmiş YPG/PKK terrorçularının sayı 15-ə çatmışdır.

## Dünyada iqlimlə bağlı vəziyyət son dərəcə ağırdır



Yeddi ölkədən olan ekspertlər son bir il ərzində dünyada iqlim dəyişikliklərini qiymətləndirmişlər. "BioScience" jurnalında dərc olunmuş məqalədə bildirilir ki, əsas göstəricilər vəziyyətin kritik həddə yaxın olduğunu sübut edir.

Tədqiqatı ABŞ, Avstraliya, Böyük Britaniya, Fransa, Niderland, Banqladeş və Almaniyadan olan alimlər keçirmişlər.

Məqalədə qeyd olunur ki, 2019-cu ilə nisbətən iqlim dəyişikliyi ilə əlaqədar təbii fəlakətlər, o cümlədən dağıdıcı daşqınlar, rekord istilər, güclü qasırğalar və meşə yanğınlarının sayı xeyli artmışdır. Bildirilir ki, 2020-ci il tarixdə ikinci ən isti il olmuşdur. Müşahidə tarixi boyu ən isti 5 il də 2015-ci ildən sonra qeydə alınmışdır.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün “Digər malların alınması” xərc maddəsi üzrə malların satın alınması məqsədilə *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs - İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 01.09.2021-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 09.09.2021-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 10.09.2021-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC *açıq tender elan edir*

LOT - 1. Mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini etender.gov.az elektron Portalı vasitəsilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

LOT 1 - 1000,00 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN :1702563281**
**Kod : 805625**
**VÖEN : 9900001881**
**M/h : AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 17 avqust 2021-ci il saat 11:00-a kimi, tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına 25 avqust 2021-ci il saat 18:00-a qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri 26 avqust 2021-ci il saat 11:00-da Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 07 may 2021-ci il tarixli nömrəsində dərc edilmiş və həmin tarixdə dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (etender) Cisco IT avadanlıqlarına (SMARTNET) istehsalçı zəmanətlərinin 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması üzrə **“R.İ.S.K. Elmi İstehsalat Şirkəti” QSC** qalib olmuşdur.

Qalib şirkətlə 27 iyul 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 18 may 2021-ci il tarixli nömrəsində dərc edilmiş və həmin tarixdə dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (etender) Mətbəə işlərinin satın alınması üzrə **“İndiqo” MMC** qalib olmuşdur.

Qalib şirkətlə 27 iyul 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən elan edilmiş “Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar blanklarının hazırlanması (çap olunması) xidmətlərinin satın alınması” üzrə elan edilmiş açıq tenderdə iddiaçıların sayı üçdən az olduğu üçün “Dövlət Satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi tərəfindən Talassemiya xəstəliyi ilə mübarizə tədbirlərinin icrası ilə əlaqədar dərman vasitələrinin və tibbi sərfiyyat mallarının satın alınması üzrə keçirilmiş açıq tender prosedurunun qalibləri 3 iddiaçı “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti və “Paşa - K” firması müəyyən edilmişdir.

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi ilə “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 22.07.2021-ci il tarixdə **1,615,243.00 (bir milyon altı yüz on beş min iki yüz qırx üç manat 00 qəpik) manat,** “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti arasında **4,939,055.20 (dörd milyon doqquz yüz otuz doqquz min əlli beş manat 20 qəpik) manat** və **“Paşa - K” firması arasında isə 799,721.40 (yeddi yüz doxsan doqquz min yeddi yüz iyirmi bir manat 40 qəpik) manat** məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi tərəfindən “Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri üzrə dərman vasitələri”nin satın alınması üzrə 22 iyun 2021-ci il tarixdə elan olunmuş müsabiqə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinin tələbinə əsasən ləğv edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi tərəfindən Hemofiliya xəstəliyi ilə mübarizə tədbirlərinin icrası ilə əlaqədar dərman vasitələrinin satın alınması üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti müəyyən edilmişdir.

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi ilə “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti arasında 22.07.2021-ci il tarixdə **10,424,828.00 (on milyon dörd yüz iyirmi dörd min səkkiz yüz iyirmi səkkiz manat 00 qəpik) manat** məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi kotirovka sorğusu həyata keçirir

LOT-2: Dəftərxana və təsərrüfat malları
LOT-3: İnventar

Kotirovka sorğusu üzrə Əsas şərtrlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar. Nigar Bədəlova, tel: 492-83-85 (daxili 706).

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 12.08.2021-ci il saat 12:00-dək idarə tərəfindən qəbul ediləcək.

Zərflər 12.08.2021-ci il saat 15.00-da idarənin akt zalında açılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi daxili işlər orqanlarının İstintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Pərviz Əliyevə anası

**AYDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4587
Sifariş 1340
Qiyməti 40 qəpik